www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 23-24 fevral 2019-cu il Şənbə № 43 (7213) Qiymәti 60 qəpik

Xəbər

**Bakıda kişi qadının üstünə kerosin töküb yandırdı**

yazısı səh.2-də

## Gündəm

**Azay Quliyev Vyanada sülhün optimal modelini təklif etdi - detallar**



Deputat xalqları dayanıqlı və uzunmüddətli sülhə hazırlamaq üçün ən minimal tələbləri açıqladı

yazısı səh.9-da

**"Gürcüstan-Azərbaycan konflikti yaratmaq istəyirlər" - politoloq**

yazısı səh.9-da

**Müxalifətin Əli İnsanovdan gözləntiləri...**

yazısı səh.5-də

**Rusiya SSRİ-nin taleyini yaşaya bilərmi - politoloqdan maraqlı şərh**

yazısı səh.6-da

**"Məhkumları istirahət günləri güllələyirdilər" - ölüm cəzasının ləğvinin 21 ili...**

yazısı səh.10-da

**"Dünyada QHT-lərə hücumlar artır" - "Amnesty International"**

yazısı səh.5-də

**ADU Kamal Abdulla haqda ittihamlara cavab verdi**

yazısı səh.12-də

**Sosioloq ailələrin dağılmasında internet ünsiyyətinin təsirlərini açıqladı**

yazısı səh.14-də

**"KTN xidmət qurumuna çevrilir" - ekspert**

yazısı səh.13-də

**Azərbaycanın mənzil bazarında bahalığın səbəbləri**

yazısı səh.15-də

**Qorxunc avtobus qəzaları: iki gündə 46 nəfər yaralandı, 1 nəfər öldü...**

yazısı səh.2-də

# ABŞ-DAN ERMƏNİLƏRƏ "QIRMIZI VƏRƏQƏ" - NİKOLUN QARABAĞA GÖRƏ STRATEJİ SƏHVİ

Paşinyanın "iki stul" siyasəti fiasko oldu; inqilabçı baş nazir İrana Amerikanın sərt xəbərdarlığı ilə gedir; **erməni portalı:** "Nikol Paşinyan özünün qurduğu tələyə düşdü..."




yazısı səh.8-də

# Şəmkirin icra başçısı sabiq nazir Fazil Məmmədovu rayondan qovub - ŞOK İDDİA

Biznes imperiyasını idarə etmək üçün şirkətlərin başına keçən Fazil Məmmədova "öz adamı"ndan ağır zərbə; Şəmkir "qala"sı içindən çökdürüldü...

yazısı səh.3-də



**Razim Məmmədov yol ayrıcında: vəzifəyə, yoxsa həbsə?**

yazısı səh.4-də



*Pənah Hüseyn:*

**"İsgəndər Həmidovdan xahiş etmişdim ki, QK-da qalsın"**

yazısı səh.5-də



**Saleh Məmmədov yeni yol layihələrinin anonsunu verdi**

yazısı səh.3-də



## Prezident Xızıda avtomobil yolunun tikintisinə 850 min manat ayırdı

**Prezident İlham Əliyev Xızı rayonunun Giləzi-Xızı (28 km)-Tıxlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Giləzi-Xızı (28 km)-Tıxlı avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 850,0 (səkkiz yüz əlli) min manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılır.

Maliyyə Nazirliyi bu maliyyələşməni təmin etməli, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

## Azərbaycanla Türkiyə arasında siyasi məsləhətləşmələr keçirilib

**Bakıda Azərbaycan və Türkiyə Xarici İşlər Nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti mərhələsi keçirilib.**

Xarici İşlər Nazirliyindən Trend-ə verilən məlumata görə, nümayəndə heyətlərinə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Ramiz Həsənov, Türkiyə tərəfindən isə xarici işlər nazirinin müavini Sedat Önal rəhbərlik ediblər.

Nümayəndə heyətini salamlayan nazir müavini R.Həsənov iki dost və qardaş dövlət arasında əməkdaşlığın bütün sahələrdə və müxtəlif formatlarda yüksək səviyyəli inkişafından, siyasi əlaqələrin strateji müttəfiqlik səviyyəsindən məmnunluğunu ifadə edib.

Azərbaycanda olmasından məmnunluğunu bildirən nazir müavini S.Önal Türkiyə və Azərbaycan arasındakı əməkdaşlıq münasibətlərinin cari vəziyyətini yüksək qiymətləndirib. Bu xüsusda, tərəflər münasibətlərin inkişafında diplomatik nümayəndəliklərin fəaliyyətini xüsusilə qeyd ediblər.

Eyni zamanda, tərəflər iki ölkə arasındakı əməkdaşlıq əlaqələrində üçüncü ölkələrin iştirakının əhəmiyyətinə toxunaraq, müxtəlif səviyyələrdə keçirilən üçtərəfli və dördtərəfli əməkdaşlıq formatlarının əhatə dairəsinin genişləndirilməsinin zəruriliyinə diqqət çəkiblər. Habelə, beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu, qarşılıqlı dəstəyin əhəmiyyətinə vurğu edilib.

Nazir müavini R.Həsənov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlar prosesinin son vəziyyətinə dair ətraflı məlumat verib, Türkiyənin münaqişənin ədalətli həlli istiqamətindəki mövqeyinə görə minnətdarlıq ifadə edib.

Görüş zamanı ikitərəfli münasibətlərin bütün sahələrini əhatə edən, eləcə də qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.


## Abunə daha sərfəlidir - "Yeni Müsavat" abunə kampaniyasını davam etdirir




"Yeni Müsavat" qəzeti oxucularına bəyan edir ki, abunə yazılmaqla qəzeti daha sərfəli qiymətlərlə əldə edə bilərlər.

Köşklərdən alınan qəzetin bir nüsxəsi 60 qəpikdir. Abunə ilə qəzetin bir nüsxəsi isə sizə daha ucuz - **48 qəpiyə** başa gələcək.

**Aylıq abunə - 12 AZN**
**3 aylıq - 36 AZN**
**6 aylıq - 72 AZN**

Abunə yazılmaq üçün yaşadığınız ərazidə istənilən poçt şöbəsinə müraciət edə bilərsiniz.

Eyni zamanda Poçt Daşıma Mərkəzinin baş ofisi ilə: **(012) 598-49-55** nömrəsi ilə əlaqə saxlaya bilərsiniz.

Bundan başqa "Qaya" Mətbuat Yayımı vasitəsilə də abunə yazıla bilərsiniz.

**Əlaqə telefonu: 012-565-67-13, 012-564-48-96**


# Mehriban Əliyeva Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi ilə görüşdü

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva fevralın 22-də Böyük Britaniyanın Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva artıq üçüncü dəfədir Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə görüşdüyünü bildirərək, ölkəmizlə Böyük Britaniya arasında münasibətlərin daha da inkişaf etdirilməsində Baronessa Emma Nikolsonun töhfəsini qeyd edib.



Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında səhiyyə, ekologiya və mədəniyyət sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib. Birinci vitse-prezident ölkəmizdə aparılan islahatlardan, Azərbaycanda ekologiyaya dair icra edilən dövlət proqramlarından danışıb, səhiyyə sahəsinin daha da təkmilləşdirilməsi ilə bağlı təşəbbüsləri dəstəkləməyə hazır olduğunu bildirib.

Baronessa Emma Nikolson İraqda etnik azlıqların musiqilərinin notlara köçürülməsi ilə bağlı Heydər Əliyev Fonduna müraciətini diqqətə çatdırıb.

**Fondun prezidenti Mehriban Əliyeva bu müraciəti məmnuniyyətlə həyata keçirməyə hazır olduqlarını vurğulayıb.**

## Ərdoğan Türkiyə və Azərbaycan arasında hərbi sahədə mühüm sənədi təsdiqlədi

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə və Azərbaycan hökumətləri arasında hərbi tibb sahəsində təhsil və əməkdaşlıq haqqında protokolu təsdiq edib.**

Trend-in məlumatına görə, protokolun məqsədi hərbi tibb təhsili, hərbi təlim və elm sahələrində səlahiyyətli orqanların cavabdehlikləri çərçivəsində tərəflərin riayət etməli olacaqları əsasları müəyyənləşdirmək və əməkdaşlığı inkişaf etdirməkdir.

Sənəd həmin sahələrdə şəxsi heyət, material, təchizat, məlumat və təcrübə mübadiləsini əhatə edir.

# Ölkədə meşələrin çəpərlənməsinə başlanılıb

### Meşə fonduna məxsus torpaqların sahibkarlara icarəyə verilməsi nəzərdə tutulur

**"Meşə ehtiyatlarından daha səmərəli istifadə etmək məqsədi ilə mal-qaranın və insanların müdaxilə etdikləri ərazilərdə çəpərlənmə işlərinə başlanılıb".**




"Report" xəbər verir ki, bunu **Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Meşələrin inkişafı departamentinin sektor müdiri Sadiq Salmanov** deyib.

Onun sözlərinə görə, bu il çəpərləmə işləri 200 km-lik ərazidə davam etdiriləcək: "Həmin ərazilər, əsasən, dağlıq rayonlarda olacaq. Məlumdur ki, mal-qaranın yaylaq ərazilərinə getdiyi cığırlar, əsasən, meşə fondu ərazilərindən keçir. Ona görə də həmin cığırların hər iki tərəfdən çəpərlənməsi nəzərdə tutulur ki, mal-qara həmin yerlərə daxil ola bilməsin. Məqsəd həmin ərazilərdə təbii cücərtilərin məhv olmasının qarşısını almaq və onun inkişafının sürətlənməsinə zəmin yaratmaqdır. Çəpərlənmə işləri bu günə qədər Quba, Zaqatala, Gədəbəy, Qax və bir çox dağ rayonlarında həyata keçirilib və davam etdiriləcək".

**Nazirlik rəsmisi əlavə edib ki, meşə ehtiyatlarının qorunması üçün meşə fondu ərazilərində 5 kamera quraşdırılıb:** "Bu il ərzində meşələrdə daha 15 kameranın quraşdırılması planlaşdırılır və bu istiqamətdə işlər gələcəkdə də davam etdiriləcək".

Sadiq Salmanov deyib ki, meşə fondunun əkinə yararlı açıq sahələrində meyvə bağlarının salınması üçün torpaqların sahibkarlara uzunmüddətli icarəyə verilməsi nəzərdə tutulur.

S.Salmanovun sözlərinə görə, bununla bağlı ETSN tərəfindən təkliflər paketi hazırlanıb, həmin paketlər sahibkarlara təqdim ediləcək. Təkliflər paketində hər bir regionda bitkinin bitmə şəraiti, torpağın tərkibi, relyefi, əkin sxemi verilməklə hansı ağac növlərinin əkilməsinin tövsiyə olunduğu göstərilib. Sahibkarlardan sadəcə həmin ərazilərdə meyvə bağların salınması üçün sərmayə qoyulması təklif olunacaq.

Mütəxəssislər tərəfindən ağaclara qulluq haqqında da məlumatlar veriləcək.

Sektor müdiri bildirib ki, Azərbaycanda meşə ərazisində 21 min ha ərazidə meyvə bağları salınacaq. Nazirlik rəsmisi qeyd edib ki, aqrobağların salınması işlərinə 2017-ci ildən başlanılıb və artıq 5 min ha ərazidə aqrobağ salınıb.

**S.Salmanov deyib ki, 2021-ci ilə qədər Azərbaycanın meşə təsərrüfatında geniş ərazilərdə aqrobağların salınması nəzərdə tutulur. Aqrobağlarda qoz, fındıq, şabalıd, nar, tut, şaftalı, gülüş, ərik, sitrus bitkiləri, zeytun, albalı, alma, armud ağaclar əkilir və bu işlər davam etdiriləcək.**

## Bakıxanovda hərəkət məhdudlaşdırılır

**Aparılan təmir-tikinti işləri ilə əlaqədar olaraq Sabunçu rayonu, Bakıxanov qəsəbəsi Səməd bəy Mehmandarov prospektində Dəmiryolu stansiyasından Sabunçu İcra Hakimiyyətinə doğru olan istiqamətdə hərəkət qısa müddətlik məhdudlaşdırılır.**

"Azərbaycan Avtomobil Yolları" Dövlət Agentliyi Avtonəqliyyat vasitələrinin hərəkəti müvəqqəti olaraq əks istiqamət üzrə ikitərəfli olmaqla təmin olunacaq.

Qurum müvəqqəti narahatlığa görə vətəndaşlardan üzr istəyir, sürücülərdən aparılan işlərə anlayışla yanaşmalarını xahiş edir.

## Bakıda kişi qadının üstünə kerasin töküb yandırdı

**Bakıda güclü alkoqol qəbulu az qala faciəyə səbəb olacaqmış. Kişi qadını yandırıb, amma xoşbəxtlikdən o, sağ qalıb.**

Sputnik.az xəbər verir ki, Xətai rayon Polis İdarəsindən verilən məlumata görə, xoşagəlməz insident fevralın 21-də saat 19:40-da Nobel prospektindəki evlərdən birində baş verib.

Qabil adlı kişi 41 yaşlı Rübabə Nuriyevanın üstünə kerosin töküb və ona od vurub. Xoşbəxtlikdən qadının köməyinə yetişiblər və onu Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimlərin Plastik və Rekonstruktiv cərrahiyyə klinikasına çatdırıblar. Qadının başı, boynu və əlləri yanıb. Pasientin vəziyyəti kritik deyil.

Kişi cinayəti törədəndən sonra qaçıb gizlənib. Lakin fevralın 22-də Xətai rayon Polis İdarəsinin əməkdaşları onu saxlayıblar. Məlum olub ki, saxlanılan şəxs zərərçəkmişin dostu, tüfeyli həyat tərzi keçirən Bakı sakini, 33 yaşlı Tağıyev Qabil İsgəndər oğludur.

Cinayət baş verən zaman onların hər ikisi möhkəm sərxoş olub. Tağıyev törətdiyi cinayəti xatırlamır və onu boynuna almaq istəmir.

**Faktla bağlı cinayət işi açılıb.**

# Saleh Məmmədov yeni yol layihələrinin anonsunu verdi

## Nobel prospekti yenidən qurulacaq, Bakı-Ələt-Astara-İran sərhədi avtomobil yolu bu ilin sonundan ödənişli olacaq...

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin əməkdaşları peşə bayramlarını qeyd ediblər.**

Musavat.com xəbər verir ki, 22 fevral - Avtomobil yolları işçilərinin peşə bayramı günü münasibətilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri Saleh Məmmədov və agentliyin kollektivi Fəxri xiyabana gələrək mərhum prezident Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı önünə güllər düzülüb.

Daha sonra Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin kollektivi Şəhidlər xiyabanına gedərək ölkəmizin azadlığı və suverenliyi uğrunda mübarizədə canlarından keçmiş şəhidlərin xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

**Jurnalistlərə açıqlama verən Saleh Məmmədov bildirib ki, Bakıda bir sıra yolların təmiri nəzərdə tutulub:**





"2008-ci ilin fevralın 22-də möhtərəm prezidentin fərmanı ilə postsovet məkanında ilk dəfə olaraq Azərbaycan respublikasında yol təsərrüfatı işçilərinin peşə bayramının qeyd olunması təsdiq edildi. Artıq 11-ci ildir ki, yol təsərrüfatı işçiləri öz peşə bayramlarını şərəflə qeyd edirlər. Bu il qarşısımızda böyük planlar var. Cənab prezidentin ən prioritet məsələlərindən biri budur ki, bu il respublikamızda 600 kəndi birləşdirən, min kilometrdən artıq kənd yollarının bərpası, təmiri həyata keçirilsin. Eyni zamanda Bakı şəhərində 13 layihəmiz var. Bakı şəhəri ilə kəndləri, qəsəbələri birləşdirən yolların yenidən çəkilməsi nəzərdə tutulub. Bundan başqa Bakı şəhərinin avtomobil yollarında yeraltı və yerüstü piyada keçidlərinin inşası planlaşdırılıb. Bütün bunları 2019-cu ilin sonuna qədər yerinə yetirəcəyik. Ən başlıca işlərimizdən də biri, Bakıdan Samur çayını Rusiya sərhədi ilə birləşdirən körpünün tikintisini başa çatdırmaqdır. Respublika sərhədinə uzanan Bakı-Rusiya Federasiyası yeni avtomobil yolunun tikintisinin ikinci mərhələsini yekunlaşdırmaqdır. İkinci mərhələ dedikdə, Hacı Zeynalabdin Tağıyev adına qəsəbədən, Giləzi qəsəbəsinə qədər olan 30 kilometrə yaxın, birinci dərəcəli avtomobil yolunun tam bərpasını başa çatdırmaq, açılışını etməkdir. Qeyd etdiyimiz körpüdən Bakı istiqamətinə uzanan yeni 4 cərgəli avtomobil yolunun 39 kilometr hissəsini tikib, başa çatdırıb, istismara verməyi düşünürük. Onu da deyim ki, paytaxtın Xəzər, Binəqədi, Sabunçu, Xətai, Qaradağ, Nəsimi rayonlarının ərazisində bərbad vəziyyətdə olan yolların yenidən qurulması nəzərə alınıb. Həmin yollar üzərində yeraltı və yerüstü piyada keçidlərinin inşası bu il başa çatdırılacaq. Gələcək planlarımızda da qəsəbədaxili və məhəllələrarası yolların yenidən təmir olunması da var".

**S.Məmmədov "Babək" prospekti ilə bağlı söylənən fikirlərə də münasibət bildirib:**

"Bəzi insanlar yol tikintinin necə aparılması barəsində ya naşılıq edirlər, ya da görülən işləri gözdən salmaq üçün bəhanələr axtarırlar. Biz Babək prospektində yeni yol tikməmişik. Bu yol 1980-ci illərdə salınıb. İkinci dəfə 1996-98-ci illərdə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən yol yenidən qurulub. Həmin yolun aşınma müddəti keçdiyinə görə, cənab prezident yolun yenidən qurulması barədə tapşırıq verib. Biz də mövcud yolu yenidən bərpa etmişik. Yəni əsaslı təmir etmişik. Orda müəyyən aşınmaya məruz qalmış hissələr yenidən bərpa olunub və asfalt vurulub. Lazım olan yerlərdə yol genişləndirilib, Bakı Nəqliyyat Agentliyinin verdiyi plana uyğun avtobus dayanacağı və ikitərəfli avtobus hərəkətinin tənzimlənməsi üçün yol xətti çəkilib. Bəzi insanlar Azərbaycan dövlətinin inkişafını görmək istəmir. Onlar bu inkişafı görmürlərsə, deməli, azərbaycanlı deyillər".

**S.Məmmədov onu da qeyd edib ki, Bakı-Ələt-Astara-İran sərhədi avtomobil yolu bu ilin sonundan ödənişli olacaq.**

Onun sözlərinə görə, artıq yolun ödənişli olması ilə bağlı lazımi tədbirlər görülüb: "Bu yolun əvvəlcə ödənişli olması müəyyən edilməmişdi. Sonradan qərara alındı ki, eyni yola alternativ yol var və ona görə də həmin yol ödənişli ola bilər. Bununla bağlı biz aidiyyəti qurumlara təklif vermişik. Təklif Prezident İlham Əliyev və Nazirlər Kabineti tərəfindən qəbul olunub".

S.Məmmədov bu ilin sonuna qədər həmin yolun 172 kilometrlik hissəsinin ödənişli istifadəsinin nəzərdə tutulduğunu qeyd edib.

**S.Məmmədov həmçinin məlumat verib ki, Bakının Nobel prospektinin gələn il yenidən qurulması planlaşdırılır. Onun sözlərinə görə, bununla bağlı plan da var:** "Nobel prospektinin yenidən təmir olunması və burada əvvəlcədən nəzərə alınmayan intensivliyin aradan qaldırılması gələn ilin planlarında nəzərə alınacaq. Gələn il prospektin yenidən qurulması nəzərdə tutulub".

**Son zamanlar haqqında danışılan Bakı-Quba yolu ilə bağlı da S.Məmmədov məlumatlar verib. O bildirib ki, Bakı-Quba yolunun Şabran rayonu Gəndob kəndindən Sumqayıt şəhərinin Hacı Zeynalabdin Tağıyev qəsəbəsinə qədər olan hissəsi bu il yenidən qurulacaq:**

"Yolun bu hissəsinin çəkilişində bəzi texnoloji normalara riayət olunmayıb. Digər tərəfdən isə həmin yolla ağırtonlu yük maşınlarının hərəkətinin tənzimlənməsinə zəif nəzarət edildiyindən müəyyən qüsurlar yaranıb. Hazırda həmin qüsurların aradan qaldırılması üçün tədbirlər görülür. Müəyyən hissələrdə isə bu il yenidənqurma işləri görəcəyik. Beton yolun asfaltla əvəz olunması nəzərdə tutulmayıb. Yolu hissə-hissə bərpa edəcəyik", - deyə o, qeyd edib.

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

# Şəmkirin icra başçısı Fazil Məmmədovu rayondan qovub - ŞOK İDDİA

## Biznes imperiyasını idarə etmək üçün şirkətlərin başına keçən sabiq vergilər nazirinə "öz adamı"ndan ağır zərbə; Şəmkir "qala"sı içindən çökdürüldü...

**Musavat.com-un məlumatına görə, Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov sabiq nazir Fazil Məmmədova rayon ərazisində sahibkarlıq fəaliyyəti göstərməyi qeyri-rəsmi olaraq qadağan edib. Hətta Şəmkirdən aldığımız bir məlumata görə, Fazil Məmmədov rayon ərazisindən qovulub.**

Məsələnin kuryoz tərəfi budur ki, Alimpaşa Məmmədov Fazil Məmmədovun öz kadrıdır, hətta yaxın adamlarından biridir. F.Məmmədov onu ən sadiq və etibarlı adamı kimi öz "qalasına" - Şəmkirə göndərib. Bu rayon və onun ətrafında Fazil Məmmədovun milyonlarla yatırım etdiyi müəssisələr, özəl mülklər, tərpənməz əmlaklar var. İndi aydın olur ki, "qala" içdən çöküb - Alimpaşa öz xeyirxahına qarşı çıxıb.

Dünən "Yeni Müsavat" qəzetinin manşetində belə bir yazı dərc olunmuşdu ki, müalicədən sonra Fazil Məmmədov özünün malik olduğu biznes imperiyasının başına keçib və onu bilavasitə idarə etmək qərarına gəlib. Sitat: "Fevralın 8-də "ölüm" xəbəri yayılan sabiq vergilər naziri Fazil Məmmədovun səhhəti normaldır və hazırda Bakıda biznes işləri ilə məşğuldur. Yaxın çevrəsində olan mənbənin yerli mediaya verdiyi məlumata görə, F.Məmmədova əvvəlki biznesi İlə məşğul olmaq icazəsi verilib. Bu səbəbdən də o, hazırda əsas diqqətini "Synergy Group" MMC şirkətlər qrupuna yönəldib.

Məlum olduğu kimi, "Synergy Group" MMC şirkətlər qrupu hələ Fazil Məmmədov nazir olduğu dövrdə yaradılıb, rəsmi olmasa da, de-fakto ona məxsus olub.

"Yeni Müsavat" bildirir ki, 2010-cu ildə təsis edilmiş, şüarı "Davamlı gələcəyə doğru" olan "Synergy Group" MMC Azərbaycanda fəaliyyət göstərən ən iri özəl investisiya şirkətlərindən biridir. "Synergy Group" MMC qeyri-neft sektorunda müxtəlif və inkişaf yönümlü şirkətlərdən ibarətdir.

"Synergy Group" istehsalat, tikinti, kənd təsərrüfatı, İKT, hotelçilik, təhsil, səhiyyə və bank işi sahələri üzrə iri yatırımlar etməkdədir. Şirkətlərin böyük əksəriyyəti Bakıdan kənarda yerləşməklə, regionların sosial-iqtisadi inkişafında mühüm paya malik olduğu bildirilir. Qrupa rəsmi olaraq, 30-a yaxın, qeyri-rəsmi isə 60-dan çox şirkət daxildir. Bu şirkətlərin bəzisində xarici kapital da iştirak edir. "Synergy Group"un tərkibindəki "Excelsior Hotel Shamkir", "AzAqro" qızılgül istixanaları, Zəyəm Texnologiyalar Parkı, "Zəka" Gənclər Mərkəzi kimi bəzi şirkətlər Fazil Məmmədovun hələ də kurasiyasında olan Şəmkirdə yerləşir.




"Synergy Group"un yalnız bankı yox idi. 2015-ci ildə YAP-çı deputatlardan birinin qardaşına məxsus "Kövsər Bank"ı "Synergy Group" alıb. "Kövsər Bank"ın 38 milyon manatlıq yeni səhm emissiyanı "Synergy Group "alıb"...

Bu sitatdan və məlumatlardan da göründüyü kimi, F.Məmmədovun biznes imperiyasına aid əhəmiyyətli komponentlər Şəmkir rayonunun inzibati ərazisində yerləşir. Biznesini öz vətənindən idarə etmək, yaxud da onun məlum komponentlərini yoxlamaq üçün Şəmkirə varid olan sabiq nazirin belə bir aqibətlə üzləşməsi onun planlarına ağır zərbədir.

Mənbə bildirir ki, Fazil Məmmədov "Excelsior Hotel Shamkir"də özünə dəbdəbəli ofis hazırlıqları ilə məşğul imiş. Hətta sabiq nazirin ailəsi də Bakıdan Şəmkirə köçübmüş. F.Məmmədovun rayonda son dərəcə dəbdəbəli bir evinin olduğu deyilir. Ailəsi ilə birlikdə orda qalmağı planlaşdırırmış. Lakin Alimpaşa Məmmədov sabiq şefinin planlarını darmadağın edib.

Başçı F.Məmmədovun rayonla əlaqəsi olan başqa adamlarını da Şəmkirdən qovub. Mənbə bildirir ki, Fazil Məmmədovun yaxın adamlarından biri - qardaşının qaynı Turan Səidov bir vaxtlar sabiq nazirin rayondakı təmir-tikinti işlərini görürmüş. Onun "21-ci əsr" adlı şirkəti də var. Hazırda bu şirkətin fəaliyyəti iflicdi. Bildirilir ki, Şəmkirin icra başçısı özünün yaxın adamlarına yeni şirkətlər açıb, rayonla bağlı bütün təmir-tikinti işlərini yaxın çevrəsinin əli ilə gördürür.

**Alimpaşa Məmmədov ötən ay Turanı yanına çağıraraq deyib ki, "bir daha ayağın Şəmkirə dəyməyəcək". Ardınca da elə Fazil Məmmədova ismarışını yollayıb:** "Ona deyin, əziyyət çəkib ofis təmir etdirməsin, mən bu rayonda başçı olan müddətdə Fazil müəllim burda yaşaya, bizneslə məşğul ola bilməz". Deyilənə görə, başçının bu ismarışından sonra Fazil Məmmədov Şəmkiri tərk edib, Bakıya gəlib. Yaxınlarına deyib ki, o, Alimpaşayla üz-üzə gəlmək, konflikt yaratmaq istəmir. Hazırda F.Məmmədovun Şəmkirdə biznesini o, nazir olduğu dövrdə müşaviri vəzifəsində işləmiş Riyad Hüseynovun qardaşı Fərid Hüseynovun idarə etdiyi deyilir.

Maraqlıdı, Fazil Məmmədov işdən çıxarıldıqdan sonra da mühafizə və kortejlə gəzir. Bunu da sabiq nazirin yaxın ətrafından "Yeni Müsavat"a bildiriblər. Həmçinin biznesini də qoruyub saxlayıb. Ona bu qədər güzəşt edildiyi halda, Şəmkirin icra başçısı nədən keçmiş nazirlə bu cür davransın? Bu sualı ünvanladığımız tanınmış şəmkirlinin qənaətinə görə, Alimpaşa Məmmədov özfəaliyyətlə məşğuldur. Onun Fazil Məmmədovla bu cür davranışını "yuxarılar" bilsə, başçı üçün işlər yaxşı getməz. Amma A.Məmmədov nə qədər qeyri-stabil şəxs kimi tanınsa da, belə sərt qərarları özbaşına qəbul etməz yəqin ki.

F.Məmmədovun bundan sonra necə davranacağı və öz adamının zərbəsini necə dəf edəcəyi hələlik məlum deyil.

**"Yeni Musavat" sabiq nazirin də mövqeyini dərc etməyə hazırdır.**

**❑ "Yeni Müsavat"ın informasiya şöbəsi**

YENİ MÜSAVAT
N 43 (7213) 23 fevral 2019

# Qüdrət Həsənquliyevin Naxçıvanla bağlı fikrinə həmkarından reaksiya

## Fazil Mustafa: "Naxçıvanın muxtariyyəti məsələsini, siyasi xarakterli muxtariyyət kimi qəbul edirəm"

**BAXCP sədri, Milli Məclisin deputatı Qüdrət Həsənquliyev azpolitika.az saytına müsahibəsində Vasif Talıbovdan da danışıb. O bildirib ki, Ali Məclis sədri Naxçıvanın rəhbəri ola bilməz:**

"Kimsənin demokratiya barədə anlayışından asılı olmayaraq, mənim hansısa məsələyə münasibətimdə məqsədim "bəy tərifi" demək və ya tənqid etmək deyil. Həmişə hansısa problemdən, xüsusilə regionlarımızın, o cümlədən Naxçıvanın dərdlərindən danışanda obyektiv olmağa çalışmışam. Yadınızdadırsa, bir dəfə mən parlamentdə məsələ qaldırmışdım ki, Naxçıvan MR Konstitusiyası Azərbaycan Konstitusiyası ilə ziddiyyət təşkil edir. Çünki Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi Naxçıvan MR Ali Məclisinin sədridir. Dolayısıyla, həm icra, həm də qanunvericilik funksiyasını yerinə yetirir. Bu da Konstitusiya ilə təsbit olunmuş hakimiyyət bölgüsü prinsipinə uyğun deyil. Mən bu məsələni qaldıranda Ziyafət Əsgərov cavab verdi ki, guya mən bu çıxışla Naxçıvanda separatizmi stimullaşdırmaq istəyirəm...

Naxçıvan Muxtar Respublikadır. Respublikadırsa, onun başçısı da var. Türkiyədə buna cümhurbaşkanı deyirlər. Mən bu anlaşılmazlığı aradan qaldırmaq üçün parlamentdə məsələ qaldırmışdım. Demişdim ki, gəlin, Rusiya təcrübəsindən biz də yararlanaq. Bilirsiniz ki, Rusiyada da muxtar respublikalar var və başçıları prezident adlanırdı. Sonradan bu milli muxtar respublikaların başçıları qubernator adlandırıldı. Biz də muxtar respublikanın başçısını qubernator adlandıra bilərik. Yaxud sadəcə muxtar respublikanın başçısı deyə bilərik. Necə ki, rayon icra hakimiyyətinin rəhbərlərini başçı adlandırırıq. Adını nə qoyuruqsa qoyaq, Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi Ali Məclisin sədri ola bilməz. Yəni orda hakimiyyət bölgüsü prinsipinə əməl olunmalıdır. Bunu ölkənin konstitusiyası tələb edir. Konstitusiyada yazılır ki, Azərbaycanda dövlət hakimiyyəti hakimiyyətlərin bölgüsü prinsipi əsasında həyata keçirilir. Bu, imperativ bir normadır. Bu normaya əməl olunmalıdır".


Fazil Mustafa

"Yeni Müsavat"a danışan **naxçıvanlı deputat Fazil Mustafa** bildirib ki, Naxçıvanın muxtariyyəti məsələsini, siyasi xarakterli muxtariyyət kimi qəbul edir: "Ona görə də burada hüquqi detallara varmağı fərqli şərh edərdim. Düşünürəm ki, siyasi muxtariyyət əslində Naxçıvanın təhlükəsizliyini qorumaq və buna təminat olan dövlətlərin, xüsusilə də Türkiyənin məsələdə həssaslığını saxlaması baxımından vacibdir. Hüquqi detallar isə formal xarakter daşıyır. Hansı formada olması bir o qədər də böyük əhəmiyyət kəsb etmir. Əsas odur ki, blokada şəraitində olan Naxçıvanın müəyyən təhlükəsizliyi təmin edilsin. Naxçıvan əslində eyni etnik birliyə sahib olan Azərbaycanla hansısa fərqli olmayan topluluq yaşayır. Bu baxımdan muxtariyyət də etnik xarakter daşımır ki, orada hansısa formada hüquqi düzənləmənin uyğunlaşdırılmasına daha çox diqqət edilsin. Təbii ki, konstitusiya ilə üst-üstə düşməyən məqamlar ola bilər. Ancaq siyasi muxtariyyət xarakterli, blokada şəraitində olduğuna görə və müəyyən dərəcədə təhlükəsizliklə bağlı problem yaşandığı üçün məsələnin gündəmdə tutulmasını məqsədəuyğun hesab etmirəm".

**F.Mustafa Naxçıvanın hazırkı vəziyyəti barəsində də danışıb:** "Naxçıvandakı vəziyyətlə bağlı fikirlər fərqlidir. Məsələ budur ki, hansı prizmadan yanaşırsan. Mən, təhlükəsizlik prizmasından yanaşmanın daha çox tərəfdarıyam. Sosial prizmadan yanaşan zaman təbii ki, blokada şəraitində olan Naxçıvanda əhalinin ancaq İran və Türkiyə ilə yolları açıqdır. Həmçinin Naxçıvanın yaşam şərtləri Azərbaycanın digər bölgələrindən fərqli olaraq obyektiv çətinliklərlə bağlıdır. Təhlükəsizlik baxımından isə Naxçıvanın ən azından hərbi qüvvələri kifayət qədər hazırlıqlı vəziyyətdədir. Son zamanlar bunun konkret nəticələrini də görürük. Hesab edirəm ki, bütün bunlar yüksək səviyyədədir. Ancaq bütövlükdə düşünürəm ki, hər zaman Naxçıvanı diqqətdə saxlamaq lazımdır. Əhalinin rifahını artırmaq üçün Naxçıvana daha çox vəsait ayrılmalıdır. Çünki başqa bölgələrlə oranı müqayisə etmək olmaz. Blokada şəraitində olduğu üçün bu bölgənin qorunması bizim üçün həyati əhəmiyyət daşıyır. Ona görə də oradakı həyat şəraitinin yaxşılığı, ordumuzun orada güclü olması hamımızın məqsədidir. Bu baxımdan Naxçıvanla bağlı bütövlükdə hökumətin də daha həssas davranmasının tərəfdarıyam. Daha çox orada məqsədyönlü işlərin görülməsi, xüsusilə də iş yerlərinin açılmasını vacib sayıram".

❑ **Əli RAİS,**
**"Yeni Müsavat"**

# Razim Məmmədov yol ayrıcında: vəzifəyə, yoxsa həbsə?

## Sabiq icra başçısının yeni vəzifəyə təyinat alması xəbərinin ardından həbs ediləcəyi iddiası yayılıb

**Xətai Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilən Razim Məmmədova yüksək vəzifə verilməsi ilə bağlı məlumat yayılıb. Sabiq icra başçısının Prezidentin Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsində baş məsləhətçi vəzifəsinə təyin olunması haqda məlumat yayılıb. Prezidentin mətbuat katibi Azər Qasımov axar.az-a açıqlamasında bildirib ki, onda bu təyinatla bağlı heç bir məlumat yoxdur.**

Sabiq başçının təyinatı ilə bağlı xəbərlər onun həbsi ediləcəyi ilə bağlı yayılan xəbərlərdən az sonraya təsadüf etdiyindən təəccüb doğurub. Bu da səbəbsiz deyil. Razim Məmmədov icra başçısı olduğu dönəmdə onun fəaliyyəti haqda neqativ məlumatlar səngiməyib. İşdən çıxarılmasının səbəblərindən biri də məhz nöqsanları, bir çox hallarda tutduğu vəzifəyə uyğun olmayan davranışları olub.

Hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində Razim Məmmədov əmisi oğlu, uzun illər Xətai rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin rəis müavini işləmiş Xalid Məmmədovun cinayət işi üzrə məhkəmə araşdırması davam edir. Xalid Məmmədov Razim Məmmədovun Xətai rayonunda söküntü-tikinti, alver işlərinə baxan şəxs kimi tanınırdı, onun "qara kassir"i hesab edilirdi. İttihama görə, Xalid Məmmədov qulluq mövqeyindən sui-istifadə edərək, bir sıra qanunsuz tikililərə icazə verib, rüşvət alıb. Məlumata görə, o, Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən Baş Prokurorluğa təqdim olunmuş materiallar əsasında həbs edilib. Hazırda Razim Məmmədovla bağlı da araşdırmalar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində davam etdirilir.

Razim Məmmədov vəzifədən çıxarılandan sonra qardaşı Mübariz Məmmədov Vergilər Nazirliyinin 3 saylı Ərazi Vergilər İdarəsinin Kiçik sahibkarlıqla iş şöbəsinin rəisi vəzifəsini itirib.


Razim Məmmədov

R.Məmmədov ötən il dekabrın 13-də Xətai Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad olunandan sonra M.Məmmədovun da işdən çıxarılacağı gözlənilən idi. Razim Məmmədovun yaxın ətrafı, qardaşı, əmisi oğlu və digərləri onun Bakı meri postuna gətiriləcəyini iddia edir, bunun üçün müəyyən addımlar da atırdılar. Hacıbala Abutalıbov Bakı meri vəzifəsindən uzaqlaşdırılandan Razim Məmmədov daha ciddi fəaliyyətə keçmişdi. Həmin posta özünün, bu mümkün olmadıqda isə ona yaxın digər başçının təyinat almasına çalışmışdı. Belə məlumatlar da vardı ki, R.Məmmədov Eldar Əzizovun həmin posta gətiriləcəyini bildiyindən onun əleyhinə də addımlar atmışdı. Mətbuatda hazırkı Bakı merinə qarşı neqativ məlumatların yayılmasında onun da "xidmətlərinin" olması iddiası olub. Bu baxımdan Razim Məmmədovun əmisi oğlu Xalid Məmmədovun həbsindən sonra BŞİH-dən istintaqa Xətaidə baş verən qanunsuzluqlarla bağlı qalaq-qalaq materialların göndərilməsini təsadüfi hesab etmək olmaz. Razim Məmmədov oliqarxlaşmış məmurlardan idi. Məsələn, bir neçə il əvvəl o, oğluna 300 min dollar dəyərində avtomobil almışdı. Məlum olmuşdu ki, bu dəbdəbəli maşın Almaniyadan Razim Məmmədovun övladı üçün xüsusi olaraq sifariş edilib. Razim Məmmədova qədər başçılar rayonların ərazisində torpaqları sotla satırdılarsa, o, torpağı kvadrat metrlə, həm də 1 sotun qiymətinə satırdı. Bu "biznesi" Razim Məmmədovu böyük imkanlar sahibinə çevirmişdi. Xalid Məmmədov Xətai rayonu ərazisində tikintilərə nəzarət edib. Ona bu vəzifəni qeyri-rəsmi olaraq Razim Məmmədov tapşırması da həqiqətə yaxın ehtimallardır.

**Xətai rayonunu az qala qarış-qarış söküb-tikən "Samir Ağdülü" MMC 2 mart 2007-ci ildə təsis olunub. Hüquqi təmsilçisi Zeynal Cəmil oğlu Həsənovdur.** Sumqayıt şəhəri, 10-cu mikrorayon, ev 41, mənzil 63 MMC-nin hüquqi ünvanıdır. Həmin mənzildə Həsən Müzəffər oğlu Məmmədov yaşayır. Həsən Məmmədov Sumqayıtda "Azərkimya"nın zavodlarından birində işləyir, sahibkar deyil. Müəssisənin hüquqi təmsilçisi Zeynal Həsənov eyni zamanda Xətai Rayon İcra Hakimiyyətində baş mütəxəssis işləyib. Sumqayıt şəhəri, 5-ci mikrorayon, bina 34/69, mənzil 9-da qeydiyyatda olan Z.Həsənov icra başçısı Razim Məmmədovun bacısı Alidə Həsənovanın həyat yoldaşıdır. "Samir Ağdülü" MMC-nin adı Razim Məmmədovun bacısı oğlunun adı ilə üst-üstə düşür. Samir Həsənov Zeynal Həsənovun oğludur. Belə bir aşkar korrupsiya sxemi Razim Məmmədovun 12 illik karyerasına son qoyması da şübhəsizdir. Belə bir vaxtda, yaxın ətrafı barəsində cinayət işi məhkəmədə araşdırıldığı, özünün də istintaqa cəlb ediləcəyi istisna edilmədiyi zamanda Razim Məmmədovun vəzifəyə təyinat alması inandırıcı görünmür.

**Maraqlıdır ki, Razim Məmmədov vəzifədən çıxarılandan sonra mətbuatla təmaslardan qaçır. Bununla belə, onun da mövqeyini dərc etməyə hazırıq.**

❑ **E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 43 (7213) 23 fevral 2019

# "Dünyada QHT-lərə hücumlar artır" - "Amnesty International"

**Əvəz Həsənov:** "Hökumətlərin bu münasibətində bəzi QHT-lərin müxtəlif inqilab ssenarilərində iştirakçı olmaları da rol oynayır"

**Dünyada bir çox ölkələrin hökumətləri qeyri-hökumət təşkilatlarına (QHT) hücumları artırıb. QHT-ləri və əməkdaşlarını nəzarətə məruz qoyan, qorxunc bürokratik əngəllər və daim həbs olunmaq vahiməsi yaradan qanunlar tətbiq edilir.**



Bu haqda "Amnesty International" hüquq müdafiə təşkilatı yeni açıqladığı "Susdurmaq üçün hazırlanmış qanunlar: vətəndaş cəmiyyəti təşkilatlarına qlobal təzyiq" adlı hesabatında deyilir.

Hesabatda QHT-lərin vacib işlərini görməsini önləmək üçün qorxuducu texnikadan və repressiv qaydalardan istifadə edən ölkələrin sayı açıqlanır və bu rəqəm heyrət doğurur. Belə ki, 50 ölkədə QHT-lərə qarşı qanunların ya artıq həyata keçirildiyi, ya da hazırlanma mərhələsində olduğu üzə çıxıb.

Bildirilir ki, təkcə son iki ildə dünyada birləşmək hüququnu əngəlləyən, vətəndaş cəmiyyəti təşkilatlarının işini önləmək məqsədi güdən 40 qanun ya işə salınıb, ya da hazırlanmaqdadır. Bu qanunlarda adətən qurumların qeydiyyat prosesi, onların işinin monitorinqi, resurs mənbələrinin məhdudlaşdırılması, üzərlərinə qoyulmuş məntiqsiz tələblərə əməl etmədikləri halda bağlanmaları nəzərdə tutulur.

Hesabatda Rusiya başda olmaqla MDB ölkələrinin əksəriyyətində QHT-lərlə bağlı vəziyyətin yuxarıda qeyd edildiyi kimi olduğu yazılır.

**Azərbaycanın tanınmış QHT rəhbəri-Humanitar Tədqiqatlar İctimai Birliyinin rəhbəri Əvəz Həsənov** "Yeni Müsavat"a bildirib ki, dünyanın çoxsaylı ölkələrində QHT-lərə yerli hökumətlərin bu münasibətinin müşahidə olunmasında bir sıra QHT-lərin müxtəlif inqilab ssenarilərində iştirakçı olmaları, xarici dairələrin yerli iqtidarlara həmin QHT-lərin əli ilə təzyiq edilməsi amili də rol oynayır: "Məsələn, keçmiş SSRİ ölkələrində və xüsusən Rusiyada başlanan "QHT-lər qərbin agentidir" formulası demək olar ki, QHT-lərə hədələrin, hücumların əsasını təşkil edir. Rusiyadan sonra digər MDB ölkələri bir sıra QHT-ləri qara siyahıya daxil ediblər, həmin QHT-lərlə əməkdaşlıq edən, onların layihələrini maliyyələşdirən Qərb donorları ölkədən qovulub. Xüsusən Soros Fondu ilə əlaqəsi olan istənilən təşkilat şübhə altındadır. Bu vəziyyət hətta Avropa İttifaqına üzv bəzi dövlətlərdə də hökm sürür. Bu dövlətlər beynəlxalq donor təşkilatları kimi çıxış edən Soros Fondu kimi donor təşkilatların ölkənin daxili siyasi işlərinə qarışdığını, siyasətlə məşğul olan yerli təşkilatları, QHT-ləri maliyyələşdirərək hətta hakimiyyət dəyişiklikləri ssenariləri qurduqlarını açıq bəyan ediblər".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

## "İsgəndər Həmidovdan xahiş etmişdim ki, QK-da qalsın"

Pənah Hüseyndən sabiq nazirin dediklərinə reaksiya

**Azərbaycan Xalq Hərəkatının İdarə Heyətinin üzvü, sabiq daxili işlər naziri İsgəndər Həmidov "Yeni Müsavat"ın dünənki sayına müsahibəsində Qarabağ Komitəsindən üç ay əvvəl getdiyini, sadəcə istefasını rəsmən açıqlamadığını deyib. O qeyd edib ki, sadəcə olaraq Qarabağ Komitəsinin İdarə Heyətinin üzvü Pənah Hüseynin xahişini nəzərə alıb bu səbəbdən istefasını üç ay sonra rəsmən elan edib. İ.Həmidov həmçinin bildirib ki, üç ay müddətində Qarabağ Komitəsinin iclaslarında cəmi bir neçə dəfə iştirak eləyib.**



**AXP sədri Pənah Hüseyn** həm bu məsələ, həm də İsgəndər Həmidovla, QAT sədri Akif Nağı arasında yaşanan gərginliyə bildirib. "Yeni Müsavat"a açıqlamasında Pənah Hüseyn bildirdi ki, İsgəndər Həmidov Qarabağ Komitəsindən istefa verdiyi günə qədər demək olar Komitənin bütün iclaslarında fəal iştirak edib. Lakin həqiqətən bir müddət öncə İsgəndər bəy Qarabağ Komitəsindən getmək istədiyi barədə rəsmi olmasa da açıqlama vermişdi: "Mən isə təkidlə ondan Qarabağ Komitəsində qalıb fəaliyyətini davam etdirməyi xahiş eləmişəm. Bu faktdır. Rəsmən istefa verdikdən sonra İsgəndər bəy bəyan etdi ki, bundan sonra öz fəaliyyətini Azərbaycan Xalq Hərəkatında davam etdirəcək, Qarabağ məsələsi ilə də bu qurumda məşğul olacaq. Onun rəsmi istefası qəbul olundu. Qarabağ Komitəsinin son iclasında AXH-nin nəzdindəki Qarabağ Komitəsinə uğurlar da ifadə olundu. Odur ki, bu məsələləri şişirtməyə, əlavə dedi-qodu yaratmağa da ehtiyac görmürəm. Əsas odur ki, hansı təşkilatda olur olsun Qarabağ ideyası ətrafında birləşən insanlar torpaqlarımızın işğaldan azad olunması uğrunda mübarizə aparsınlar.

Mənim xoşagəlməz hesab elədiyim situasiya odur ki, İsgəndər Həmidovla Akif Nağı arasında söz münaqişəsi müşahidə olunur. İsgəndər Həmidov Qarabağda işğala qarşı müqavimətin, müharibənin tanınmış iştirakçılarından biridir. Hələ 1991-ci ildə Çaykənd əməliyyatında iştirak edib. Sonra da Qarabağda digər çoxsaylı əməliyyatlarda aktiv iştirak edib. İstər daxili işlər naziri olduğu dövrdə, istər nazir olmazdan önceki dövrdə torpaqlarımızın müdafiəsində rol oynayıb. Hal-hazırda Qarabağ uğrunda mübarizənin ən tanınmış simalarından biridir. Ümumiyyətlə, proseslərdə ciddi rol oynayan ictimai-siyasi xadimdir. Bunlar qeyd olunmalıdır. Akif Nağının Qarabağ Azadlıq Təşkilatı Qarabağ məsələsinin gündəmdə saxlanmasında, insanların Qarabağ ideyası ətrafında səfərbər olunmasında şübhəsiz ki, xidmətləri olub. Mən Qarabağ uğrunda mübarizə aparan insanlar arasında bu cür xoşagəlməz münasibətlərin olmasını arzu etməzdim. İstərdim ki, cəmiyyətimiz də bu məsələyə sağlam münasibət bəsləsin, ötəri, ötüb keçəcək məsələ kimi baxsın, təxribatçı şəxslərin vəziyyəti qızışdırmasına uymasınlar".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Müxalifətin Əli İnsanovdan gözləntiləri...

Partiya sədrləri sabiq nazirin siyasi fəaliyyət imkanlarından danışdılar

**Həbsdə olan sabiq səhiyyə naziri Əli İnsanov son günlər müzakirə olunan simalardan birinə çevrilib. Buna səbəb də onun gələn ay Novruz bayramında imzalanacaq əfv sərəncamı ilə azadlığa buraxılacağı yönündə yayılan xəbərlərdir.**



Bu müzakirələrin fonunda sabiq nazirin azadlığa çıxdıqdan sonra hansı fəaliyyəti göstərəcəyi suallar doğurur. Əksəriyyət onun siyasətə qatılacağını güman edir. Əslən Qərbi Azərbaycandan olan Ə.İnsanovun əsasən, öz elektoratını ətrafına yığmağa üstünlük verəcəyi iddia olunur.

Belə versiya da səslənir ki, sabiq nazir müxalifət düşərgəsində müxalif qurumlardan, tanınmış siyasətçilərdən ibarət böyük bir birlik yarada bilər.

Demokratik düşərgənin İnsanovdan gözləntilərinin olub-olmamasını öyrəndik.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** "Yeni Müsavat"a açıqlamasında sabiq nazirin azadlığa çıxmasını çox arzuladığını söylədi: "Birliyi mən yaradıram. Özüm yaratdığım birlikdə də kimlər olmaq istəsə, olarlar. Həmin şəxslər Azərbaycan insanına bərabər münasibət sərgiləməli, ölkəmizin demokratikləşməsini istəməlidirlər. O zaman elə birliklərin təsisçilərindən biri olaram. Kimsə birlik yaratsın, mən də ona qoşulum, bu doğru yanaşma deyil. Əli İnsanovun Allah qapısını açsın. Çox arzu edirəm ki, həbsdə olanların hamısı həbsdən azad olunsunlar. Bilirəm ki, son məsələlərdə Əli İnsanova qarşı münasibət doğru olmayıb. Cəzasının üzərinə 7 il 5 gün əlavə olunması ilə bağlı mövqeyimi ifadə etmişəm. Çıxsın, siyasətlə məşğul olacaqsa olsun. Cəmiyyət hər şeyi görəcək. Heç kəsin siyasi fəaliyyətinə məhdudiyyət qoyulmamalıdır. Dünəninə görə bu gün siyasətlə məşğul ola bilməz kimi yanaşma kökündən yanlış olardı. Yaxud da "əvvəl başqa mövqedə olmusan, onun üçün də siyasətlə məşğul ola bilməzsən" kimi düşüncə də doğru olmazdı. İnsanlar tarixin müxtəlif dönəmlərində, vəziyyətlərində, fərqli yaşlarda mövqelərini dəyişirlər. Əli İnsanov da siyasətlə məşğul ola bilər. Mənimlə müttəfiq olacaqmı ya yox sualına indidən cavab verməк olmaz. Bir daha deyirəm ki, Azərbaycanın demokratikləşməsi istiqamətində istənilən şəxslə müttəfiqlik, əməkdaşlıq, funksional əməkdaşlıq etməyə həmişə açıq olmuşuq. Bundan sonra da belə olacaq. Nə olacaqsa, onu gələcək göstərəcək".

**Ağ Partiya başqanı Tural Abbaslı** heç kəsin bayrağı altında olmayacaqlarını qeyd etdi: "Əli İnsanov zamanında Azərbaycan hakimiyyətinin ən güclü və ən əsas adamlarından biri olub. 2005-ci ildə həbs olunana qədər də bu nüfuzunu qoruyub saxlayırdı. Həmin dönəmlərdə ölkə müxalifətinə qarşı da ən sərt mövqedə dayananlardan biri məhz Əli İnsanov idi. Ancaq həbsindən sonra və həbs müddətində özünün əzmi, səmimiyyəti və qətiyyətiylə həm ictimaiyyətdə, həm də müxalifət düşərgəsində özü barədə düşüncələri müsbətə doğru dəyişə bildi. Əslində yaşını və artıq ilk həbs müddətini başa vurduğunu nəzərə alsaq onun azadlığa buraxılmalı olduğunu düşünürəm. O yaşda insana yenidən cinayət işi açıb həbs müddətini artırılması doğru deyil. Mən də onun növbəti əfv fərmanında azad edilməsini istərdim. Ümid edirəm ki, bu Bahar bayramını evində, doğmalarının yanında qeyd edər. Əli İnsanovun həbsdən çıxandan sonra siyasətə qoşulub-qoşulmayacağını və ya hansı yol tutacağını indidən deyə bilmərəm. Məlum məsələdir ki, onun qərbi azərbaycanlılar arasındakı nüfuzu onu istər-istəməz siyasi fiqur kimi maraqlı və önəmli edir. Ancaq yenə də qeyd edirəm, indidən onun çıxdıqdan sonra atacağı addımları şərh etmək doğru olmazdı. İnşallah azadlığa çıxar, fikirlərini və planlarını açıqlayar, sonra nəsə demək olar. AĞ Partiya olaraq hakimiyyətə qarşı müxalif mövqedə olan istənilən milli qüvvə ilə əməkdaşlıq edə bilərik. Ancaq biz heç kimin bayrağı altına keçmək fikrində deyilik. Müttəfiq və ya əməkdaşlıq isə təbii ki, mümkündür".

**Vətəndaş və İnkişaf Partiyasının Əli Əliyev**: "Son dövrlər bütövlükdə siyasi məhbus məsələsi gündəmə gəlib. Mövcud siyasi məhbus korpusu içərisində Əli İnsanov ən qabarığıdır. Onun haqqında söhbətlərin artması bu səbəbdəndir. Əli İnsanov ciddi siyasi faktordur. İstisna deyil ki, azadlığa çıxsa, siyasi fəaliyyətlə məşğul ola bilər. Bu onun müstəsna hüququdur. Əslində İnsanovun içəridən mətanət nümayiş etdirməsi də bu niyyətdən xəbər verir. Əgər çıxarsa, siyasətdə olmaq qərarı verərsə, onun yerini və statusunu konkret situasiya müəyyən edəcək".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# "Kəşfiyyat dronunun vurulması düşmənə növbəti mesajlarımızdan biridir"

## Emin Həsənli: "Ermənistan heç zaman unutmamalıdır ki..."

## Şair Ramaldanov: "Düşmən tərəfindən təxribatlar hər an gözləyə bilərik"





**ATƏT-in Minsk Qrupu həmsədrinin Azərbaycana səfəri çərçivəsində fəaliyyətini həyata keçirdiyi bir vaxtda Ermənistan tərəfi növbəti dəfə təxribat törədib. Bu barədə Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Fevralın 21-i günorta saatlarında cəbhənin Ağdam rayonu istiqamətində Ermənistan silahlı qüvvələri "X-55" taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə mövqelərimiz üzərində kəşfiyyat uçuşları keçirməyə cəhd göstərib. Hərbi Hava Qüvvələrimizin Hava Hücumundan Müdafiə bölmələri tərəfindən düşmən PUA-sı dərhal aşkarlanaraq zərərsizləşdirilib.

Qeyd edək ki, düşmən tərəfin təxribatları son zamanlar daha da artıb. Azərbaycan tərəfi bu təxribatların nəinki qarşısını alır, ermənilərin layiqli cavabını verir.

**Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin sədri Emin Həsənli** Ermənistanın heç bir öhdəliyə əməl etmədiyini söylədi: "Təcavüzkar Ermənistan beynəlxalq aləm qarşısında, eləcə də, ATƏT-in Minsk Qrupu qarşısında götürdüyü heç bir öhdəliyə əməl etmir. Azərbaycan ordusu hər cəhətdən çox güclüdür. Düşmənə hər an ağır cavab veririk. Ermənistan heç zaman unutmamalıdır ki, heç bir sahədə Azərbaycandan üstün deyil və bundan sonra da belə olacaq. Daim məyus olublar. İqtisadiyyatları rəzil gündədir. Hərbi sahədə isə əzici üstünlüyün Azərbaycan tərəfində olduğu açıq görünür. Kəşfiyyat dronunun vurulması düşmənə növbəti mesajlarımızdan biridir".

**Ehtiyatda olan polkovnik, hərbi ekspert Şair Ramaldanov** "Yeni Müsavat"a məsələni bu cür şərh etdi: "Bilirsiniz ki, ATƏT-in Minsk qrupunun həmsədrləri Azərbaycan və Ermənistana səfər ediblər. Bu ərəfədə də ermənilər cəbhə xəttində təxribat və kəşfiyyat xarakterli uçuşlar aparıblar. Azərbaycanın hava hücumundan müdafiə bölmələri yenə də ayıq-sayıqlıqları ilə seçiliblər. Canlı qüvvə tərəfindən edilən təxribatların sayı azalıb. Ona görə ki, Azərbaycan silahlı qüvvələri cəbhə bölgəsində bütün nəzarəti öz əlində saxlayır, kontrol edir. Düşmən artıq nələrəsə nail ola bilmədiyini görüb bu istiqamətdə təxribatlarını azaldıb. Onun üçün uçan aparatlarla kəşfiyyat xarakterli uçuş aparıb. Bunun da qarşısı alınıb. Onlar uçan aparatlar buraxıblar və sonradan guya o aparatlar onlara məxsus deyil, Azərbaycanın özünündür. Minsk qrupu həmsədrlərinin bölgədə olduğunu görüb, bu cür görüntü yaratmağa çalışırlar ki, guya Azərbaycan tərəfi vəziyyəti gərginləşdirməyə cəhdlər edir. Artıq uçan aparatların Ermənistan tərəfinə məxsus olduğu təsdiqlənib. Onlar daim təxribat xarakterli hərəkətlərə niyyətlidirlər. Azərbaycan hər zaman olduğu kimi onların qarşısını alır. Bilirsiniz ki, yeni danışıqlarla bağlı müəyyən canlanmalar var. Hər kəs deyir ki, bu il Qarabağ münaqişəsinin həlli ili olmalıdır. Biz bunu hər il düşünsək də, bu il barədə deyə bilərəm ki, bu məsələ dəqiqləşdirilib. Bununla əlaqədar cənab prezident öz mövqeyini qəti bildirib. Düşünürəm ki, Minsk qrupunun işi iflic vəziyyətdə olsa da, diqqət edək ki, hansı təkliflərlə gəliblər, birinci şəxslərlə görüşlərinə hansı formada hazırlaşacaqlar. Təxribatlar barədə narahat olmağa dəyməz. Azərbaycan tərəfi bunların hər birinin qarşısını layiqincə alır və bundan sonra da alacaq. Ordumuz hər bir cəhətdən yüksək səviyyədə təchiz olunub. Qarabağ problemi aradan qaldırılmayana qədər düşmən tərəfindən təxribatlar hər an gözləyə bilərik. Azərbaycan tərəfin qəti mövqeyi belədir ki, gec-tez torpaqlarını azad etsin, düşmən tərəfin Azərbaycan ərazisində təxribat xarakterli fəaliyyətinə son qoysun".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Rusiya SSRİ-nin taleyini yaşaya bilərmi - politoloqdan maraqlı şərh

**ABŞ və Rusiya arasında gərginlik özünün pik həddinə çatmaqdadır. Dünyanın iki güc mərkəzinin bir-birinə meydan oxumasının sonucunda nələrin baş verəcəyi barədə ekspertlərin fikirləri də haçalanır. Bütün bunların 3-cü Dünya Müharibəsi ilə nəticələnəcəyini deyənlərlə yanaşı, Rusiyanın iqtisadi sanksiyalar səbəbindən parçalanacağını güman edənlər də var.**



## Tofiq Abbasov: "Kreml ABŞ-a sinə gərməyə və öz mövqelərini müdafiə etməyə iddialıdır; amma..."

Bu günlərdə Birləşmiş Ştatların hər iki partiyasını təmsil edən senatorlar Rusiyaya yeni sanksiyalar nəzərdə tutan qanun layihəsi hazırlayıb. Bu sanksiyalar Rusiyanın ABŞ-da seçkilərə iddia olunan müdaxiləsi, Ukraynaya təcavüzünə görə tətbiq olunacaq. Layihə müəlliflərindən biri, respublikaçı senator Lindsey Qraham sənədi "cəhənnəmdən gələn sanksiya layihəsi" adlandırıb. Rəsmi adı Amerikanın Təhlükəsizliyini Kremlin Təcavüzündən Qoruma Aktı 2019 (DASKA) olan layihə elə açıqlanan kimi Rusiyanın maliyyə bazarlarında şok yaradıb (azadliq.org). Bu layihəni hələ Konqres nəzərdən keçirəcək. Onun daha kəskin versiyası ötən il qəbul olunmamışdı.

DASKA şübhəli kiber fəaliyyət, korrupsiya, Rusiyadan kənarda bu ölkənin mayeləşdirilmiş təbii qaz ixracı obyektlərinə, Rusiyadan kənarda enerji layihələrinə investisiyalara görə Prezident Donald Trampa sanksiya tətbiq etmək hüququ verir. Paralel surətdə Pentaqonun Rusiyaya təhdidləri diqqət çəkir. Məlumatlara görə, ABŞ mümkün hərbi rəqiblərinə qarşı yeni döyüş konsepsiyası hazırlayır. Modern.az xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə Hərbi Hava Qüvvələrinin Baş Qərargah rəisi Devid Qoldfayn açıqlama verib. Onun sözlərinə görə, hərbi qüvvələr İsveçrə pendirinə daraşan siçanlar kimi düşmənin müdafiə xəttini yaracaqlar. Amerikalı hərbçilər Çin, Rusiya və digər ölkələrlə mümkün hərbi konfliktə hazır olmaq üçün yeni konsepsiya hazırlayır.

Vaşinqtonda yerləşən Bruklin Araşdırma İnstitutunda çıxış edən Qoldfayn yeni konsepsiyanın hərbi doktrinanın davam olmadığını əlavə edib. Plan quruda, havada və suda qəfil hücum etməklə düşməni çətin vəziyyətə salmağı nəzərdə tutur. Ümumilikdə, konsepsiyanın dəyəri 135 milyard dollara çatır. "Əgər Çin, Rusiya ya hər hansı digər rəqib ölkə səmalarında F-35 görsə, bu, o deməkdir ki, biz ordayıq" - deyə general Devid Qoldfayn deyib. Onun fikrincə, aviasiya hücumu ilə paralel olaraq, xüsusi təyinatlı qüvvələr quruda, sualtı qayıqlar isə sahildə fəaliyyət göstərəcək. Bundan əvvəl prezidenti Putin xarici işlər naziri Sergey Lavrov və müdafiə naziri Sergey Şoyqu ilə görüşdə Rusiyanın adekvat cavab verəcəyini bəyan etmişdi. "Amerikalı tərəfdaşlarımız müqavilədə iştiraklarını dayandırdıqlarını bəyan ediblər. Biz də iştirakımızı dayandırırıq" - o demişdi. Putin həmçinin, ABŞ-la silahların ləğvi ilə bağlı danışıq təşəbbüsü ilə çıxış etməməyi tələb edib: "Bizim üçün, tərəfdaşlarımız üçün, bütün dünya üçün vacib olan danışıqlarla bağlı tərəfdaşlarımızın bizimlə bərabər hüquqlu, məzmunlu danışıq aparmağa yetişməsini gözləyək".

Paralel olaraq Rusiya yeni silahlanma mərhələsinə qədəm qoyub. Bir tərəfdən iqtisadi sanksiyalar, digər tərəfdən də silahlanma yarışında xərclənən vəsaitlər təbii ki, təsirsiz ötüşməyəcək. Belə yanaşmalar var ki, ABŞ Rusiyanı təkcə iqtisadi sanksiyalarla çökdürmür, həm də onu silahlanma yarışında böyük vəsaitlər xərcləməyə sövq edir. Düzdür, Rusiya həm də silah satışından mənfəət götürür. Amma ABŞ-la yarışda xərclənənlərlə müqayisədə bunlar elə də böyük vəsait sayılmır. Belə rəylər var ki, ABŞ SSRİ-nin taleyini Rusiyaya da yaşatmaq istəyir.

Xatırladaq ki, vaxtilə "ABŞ-ı ötüb keçmək istəyən" SSRİ silahlanmaya böyük paralar ayırdı, sonda isə "kommunizm gözləntisində" olan vətəndaşları ərzağı da talonla almağa başladı və imperiya dağıldı. Bu mənada Putin Rusiyası Qorbaçov SSRİ-snin taleyini yaşaya bilərmi?

**Politoloq Tofiq Abbasov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Rusiyanın eyni taleyi yaşayacağını düşünmür. Səbəbinə gəldikdə, bunları söylədi: "Birincisi, artıq SSRİ-nin acı təcrübəsi bir dərs kimi var. Rusiyanın elitası həmin faciəli sonluqdan özünü sığortalaya bilir. Düzdür, hazırda Rusiyanın vəziyyəti iqtisadi cəhətdən bir o qədər də yaxşı deyil. Vaxtilə ABŞ öz müttəfiqləri ilə SSRİ-ni də əhatə eləmişdi. Ancaq indiki halda Rusiyanın vəziyyəti müəyyən mənada daha əlverişlidir. Nəyə görə? Çünki o zamanlar iki qütblülük ABŞ və SSRİ ilə məhdudlaşırdısa, indi artıq üçüncü qütb də var. Çünki artıq Rusiyanın özü də hazırda güc mərkəzi kimi qəbul olunur. Tək ona görə yox ki, artıq Rusiya öz hüdudlarından kənardakı proseslərə nüfuz edir, istər Suriya, istər Venesuela, istər Yaxın Şərq olsun. Yox, Rusiyanın nüvə potensialı, hərbi potensialı var və öz sözünü təsdiqləməyə həm də əzmi var. Dəfələrlə şəhidi olmuşuq ki, ABŞ öz sərt mövqeyindən geri çəkilib".

**T.Abbasovun sözlərinə görə, indi Rusiyanın vəziyyəti həm də ona görə əlverişlidir ki, şimal qonşumuzun milli-siyasi elitası daha mütəşəkkildir**: "Qorbaçov dövründə Kremldə artıq satqınlar oturmuşdular və onlar sistemli şəkildə SSRİ dövlətinin maraqlarına zidd işləyirdilər. Bəli, neft hadisəsi oldu, Səudiyyə Ərəbistanı ilə ABŞ sövdələşdi, dünya bazarında neftin qiymətini birdən-birə çox dəhşətli şəkildə aşağı endirdilər və bununla da sovetlərin milli eksportu çökdü. Bu hadisənin böyük təsiri var idi. Yəni Moskva iqtisadi cəhətdən çox təsirli zərbələr aldı. İndi də zərbələr alır. Amma digər tərəfdən, Kreml və onun ətrafındakı qüvvələr bir növ açıq-aşkar həm müqavimət göstərməyə hazır olduqlarını bildirirlər, digər tərəfdən də dünyada nüfuzları addım-addım artır. Çünki ABŞ-ın xarici siyasəti anlaşılmaz hal alır, onun müttəfiqi olan Avropa İttifaqı və aparıcı məmləkətlər yavaş-yavaş ABŞ-dan bədgümanlıqlarını gizlətmirlər. Bildirirlər ki, onlar rəsmi Vaşinqtonun yanaşmaları ilə razı deyillər, əksinə, Ağ Evin platformasını təftiş etməyə hazırdırlar və edirlər də. Ona görə indi ABŞ, Rusiya, Çin və Avropa İttifaqı arasında çox mürəkkəb, çoxşaxəli siyasi oyun gedir. ABŞ da gözəl başa düşür ki, istər Çin, istər Avropa İttifaqı ona qarşı hücum mövqeyinə keçməyə hazırdırlar".

**Politoloqun qənaətində Rusiya bu situasiyadan öz maraqları naminə istifadə etməyə çalışır:** "Bunun üçün Rusiyanın böyük imkanları var. Bu imkanlar da ondan ibarətdir ki, ABŞ-ın bir çox bölgələrdə, dünyanın aparıcı regionlarında çox naqolay, anlaşılmaz siyasət yeritməsi həm də Amerikanın özünün nüfuzunu aşağı salır. Ona görə də üçüncü dövlətlər hətta Rusiyanın timsalında özlərinin xilaskarını görürlər. Biz Afrika ölkələrinin, Yaxın Şərq ölkələrinin nümunəsini gətirə bilərik ki, onların Rusiyadan gözləntiləri var. İstəyirlər ki, dünyanın birqütblülüyü daha arıq sözdə yox, reallıqda sona yetsin. Çünki ABŞ təkbaşına elə proseslərə qol qoydu ki, problemlər həll olunmaq əvəzinə, daha da dərinləşdi".

**Ekspertin sözlərinə görə, Rusiyanın daxilində də bu prosesləri başa düşürlər:** "Hər halda Kreml ABŞ-a sinə gərməyə və öz mövqelərini müdafiə etməyə iddialıdır. Onun üçün Rusiyanın kifayət qədər resursları var".

❑ **Elşad PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 43 (7213) 23 fevral 2019

# Deputatın qızı İsraildə aktiv diaspor fəaliyyətinə başlayıb

## ABŞ və İsraildəki Xocalı tədbirlərindən danışan deputat Yevda Abramovdan maraqlı açıqlamalar:

## “Hansı ölkədə səfirliyimiz fəaliyyət göstərirsə, o ölkədə diaspor işini qurmağımız da asan olur”

**Ermənistanın Azərbaycana qarşı törətdiyi Xocalı soyqırımının 27-ci ildönümü münasibətilə dünyanın müxtəlif ölkələrində tədbirlər keçirilir. Bu tədbirlər həm işğalçı Ermənistanın ifşa olunması, həm də soyqırım həqiqətlərinin beynəlxalq aləmə yayılması, onun rəsmən tanıdılması üçün olduqca vacibdir.**



Fevralın 25-də Nyu-Yorkda Yəhudi Tarixi Mərkəzində Amerika Sefardlar Federasiyası ilə Amerika Müsəlmanları Liderləri İttifaqının birgə təşəbbüsü və təşkilatçılığı, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Xocalı soyqırımına həsr edilmiş “Nəzər yetirmək və danışmaq: Xocalı faciəsini yad etmək, soyqırımı və etnik təmizləməyə qarşı mübarizə aparmaq” adlı tədbir, həmçinin amerikalı musiqiçi Cefri Verbokun ifasında muğam gecəsi baş tutacaq.

Bu barədə Diasporla İş üzrə Dövlət Komitəsindən bildirilib ki, dünya çapında Xocalı soyqırımı ilə bağlı aparılan təbliğatın genişlənməsi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başladılan “Xocalıya ədalət” kampaniyasının nəticəsidir. Məlumatda deyilir ki, bu kampaniya çərçivəsində Ermənistanın yalanları və işğalçı siyasəti dünya ictimaiyyətinə çatdırılıb.

Məhz bu kampaniyanın nəticəsində yəhudi icmaları prosesə qoşulub, Azərbaycana dəstək nümayiş etdirirlər. Ötən əsrdə soyqırıma məruz qalmış yəhudi və Azərbaycan xalqlarının - Türk diasporu ilə birlikdə - birgə fəaliyyəti hədəflərə çatmağımız istiqamətində ciddi perspektivlər açır. Son zamanlar dünya azərbaycanlılarının bir araya gələrək birgə fəaliyyəti də artıq öz nəticəsini verməkdədir.

Məlumatda o da bildirilir ki, azərbaycanlılara məxsus olmayan qeyri-hökumət təşkilatının Xocalı soyqırımı qurbanlarına həsr edilmiş geniş tədbiri ABŞ tarixində ilk dəfə keçirilir. Tədbirdə Amerikadakı müxtəlif yəhudi təşkilatlarının liderləri, amerikalı gənc yəhudi liderlər, yəhudi və müsəlman dini liderlər, soyqırımı qurbanı olmuş digər xalqların nümayəndələri, Birləşmiş Millətlər Təşkilatının rəsmi şəxsləri, Nyu-Yorkdakı diplomatik nümayəndəliklərin təmsilçiləri, soyqırımı üzrə beynəlxalq mütəxəssislər, amerikalı tarixçilər, Xocalı soyqırımı zamanı doğmalarını itirmiş, diasporumuzun üzvü Anar Usubov, Qaçqın və Məcburi Köçkünlərin işləri üzrə Komitəsinin nümayəndəsi, Azərbaycanın ABŞ-dakı səfirliyinin əməkdaşları və ABŞ-dakı Azərbaycan diasporu da daxil olmaqla təxminən 150 nəfərin iştirakı gözlənilir.

**Milli Məclisin yəhudi deputatı, İsrail-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Yevda Abramov** “Yeni Müsavat”a açıqlamasında iki xalqın əməkdaşlığını yüksək qiymətləndirdi. Bildirdi ki, tarixdə soyqırıma məruz qalmış yəhudi və Azərbaycan xalqları, onların diaspor təşkilatları birgə fəaliyyət göstərsə, Xocalı həqiqətlərinin yayılmasında ciddi uğurlara nail olmaq mümkündür: “Mən bu məsələni Amerikada olanda da qabartmışdım. İsraildə bizim böyük diasporumuz var. Dövlət adamları bəzən 100 minlik diasporumuzun olduğunu deyirlər. Amma İsraildə azı 80 min fəal Azərbaycan yəhudiləri, bir az da Dağıstandan gedən dağ yəhudiləri var. Bu gün orada görülən işlərin əsas təşkilatçısı, ilhamvericisi ”AzIz” Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasıdır. Təəssüf ki, İsraildə səfirliyimiz yoxdur. Açığını deyim, hansı ölkədə səfirliyimiz fəaliyyət göstərirsə, o ölkədə diaspor işini qurmağımız da asan olur. Səfirliyimizin açılmadığı ölkələrdə isə biz çalışırıq ki, dostlara, yoldaşlara, şəxsən tanıdığımız insanlara müraciət edək. İnanırsınız, mən özüm hətta qızımı da Azərbaycanın dünyada tanıdılması məqsədilə diaspor fəaliyyətinə cəlb edirəm. Səfirlik olmayan yerlərdə isə parlamentin Dostluq Qrupunun işi çox çətindir. Telefonla, tez-tez gəlib-getməklə məsələni həll edə bilmirik. İsraildə səfirliyimiz olsa, işlər lap yaxşı gedərdi. Amma olmasa da, böyük faciə deyil. İşləri düzüb-qoşuruq, tarixi ənənələr var. Necə ki, 14-15 il əvvəldən ənənələrin əsasını qoymuşuq, bu gün avtomatik şəkildə işlər gedir. Çoxlu fəalımız var, xüsusilə də Qafqaz təşkilatı çox fəaldır. Sağ olsun oğuzlu balalarımız, qubalı uşaqlarımız, bakılı yəhudilərimiz”.

**Dostluq qrupunun sədri qəzetimizə maraqlı bir məlumatı da söylədi. Dedi ki, İsrailin Xayfa şəhərində yaşayan qızı Səbinə Abramovanı da diaspora işlərinə cəlb edib:** “Qızım telekommunikasiya sahəsində işləyir. Amma İsraildə Qafqaz Yəhudi Cəmiyyətində fəaldır. ”AzIz”-in şöbəsində ictimai əsaslarla çalışır. Azərbaycanla bağlı bütün tədbirlərdə iştirak edir, həmçinin təşkilatçılıqla məşğul olur. Mən də deməmişəm ki, əlinizdən nə gəlirsə, Azərbaycan üçün eləyin. Mənim bir qızım, bir oğlum ordadır. Oğlum da işdən fürsət tapanda tədbirlərə qatılır. Amma qızım çox fəaldır”.

**Y.Abramov onu da vurğuladı ki, hazırda İsrailin üç şəhərində - Xayfa, Akko və Təl-Əvivdə Xocalı soyqırımı ilə bağlı tədbirlər keçirilir:** “Xəstəliyimlə əlaqədar ayda bir dəfə İsrailə gedirəm. Arye Qutla (Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri-red.) və orada fəaliyyət göstərən Qafqaz Cəmiyyətinin üzvləri ilə yaxından əlaqə saxlayıram. Ən yaxın dostum Ariyel Qut orda olduğu üçün mən heç nəyə görə darıxmıram, biliirəm ki, hər şey yaxşı olacaq. Allah ona da kömək olsun, bir az xəstəliyi var. Çox fəal inşandır, özü də keçmiş bakılıdır. Bu şəxslərin təşəbbüsü ilə İsraildə mütəmadi konfranslar keçirilir. Biz həmişə çalışırıq ki, Amerikada və İsraildə olan diaspor nümayəndələrimiz yəhudilərlə qardaşlıq, dostluq əlaqələrində olsun, əhəmiyyətli işlər görsünlər. Görünür, bunun nəticəsidir, Amerikada məsələyə bigənə qalmırlar. Orada fəaliyyət göstərən yəhudi təşkilatlarının liderləri dəfələrlə Azərbaycanda olublar, rəsmi şəxslərlə görüşüblər. Uşaqlar ötən gün İsraildə Xocalıya aid tədbir keçirməlidir. Bir gün qabaq da Heydər Əliyev Evində keçirdilər. Növbəti tədbir də Təl-Əvivdə olacaq”. Y.Abramov bildirdi ki, özü səhhəti ilə əlaqədar İsrailə səfər edə bilməsə də, həmkarları, dostluq qrupunun üzvləri - Asim Mollazadə, Rasim Musabəyov və digərləri Xocalı tədbirlərində iştirak edir.

Deputat ABŞ-da dağ yəhudilərinin də çox fəal olduğunu vurğuladı. Bruklin şəhərinin dağ yəhudilərinin dini icmasının sədrindən - mənim məktəb dostumdur - digər insanlara qədər çoxsaylı dostlarımız Xocalı ilə bağlı çalışırlar”. **Y.Abramov ABŞ-da keçiriləcək tədbiri də Yəhudi-Azərbaycan qardaşlığının nümayişi kimi səciyyələndirdi:** “Mən hələ 2006-cı ildə ilk dəfə Amerikada olanda Cənubi Azərbaycandan olan qardaşlarımızı, Türkiyənin ABŞ-dakı səfirini, Azərbaycan Diasporunun aktiv üzvlərindən olan Tomris Azərini, Dağ Yəhudiləri İcmasının fəal nümayəndələrini, Yəhudi sinəqoqunun ağsaqqalını və digər şəxsləri bir yerə yığaraq, söhbətlər aparmışdım. Onlarla müzakirə etdiyim məsələ ABŞ-da birlikdə fəaliyyət göstərməyimizlə bağlı təkliflər idi. Sadaladığım icmaların nümayəndələrinə bildirdim ki, vahid qrup altında birləşib, mənfur qonşularımıza qarşı tədbirləri keçirməliyik. Qan yaddaşımıza həkk olunmuş Xocalı soyqırımını unutmamalıyıq. Və ən önəmlisi bu tədbirləri təqvimdən təqvimə deyil, hər zaman təşkil etməliyik. Düzdür, bu addımdan sonra kütləvi konfranslar, tədbirlər olmamışdı. Amma Nyu-York şəhərinin küçə və prospektlərində, metrostansiyaların giriş və çıxışlarında Xocalı faciəsi barədə panellər asılırdı. Bundan sonra bütün qurultaylara qatılan Tomris xanımla (Tomris Azəri) bir neçə dəfə görüşüb, bu barədə söhbətlər aparmışıq”.

**Deputat qeyd etdi ki, bundan sonra da Azərbaycan-Yəhudi qardaşlığı davam edəcək:** “Xocalı soyqırımı ümumi dərdimizdir. Azərbaycan xalqının kədəri bizim kədərimiz, sevinci sevincimizdir. Yəhudi və azərbaycanlıları biri-birindən heç kim ayıra bilməz. Mən yəhudi qardaşlarımızla görüşlərdə də dəfələrlə demişəm ki, baxın, özüm də azərbaycanlılardan seçilmirəm. Ona görə, bu dərd hamımızın dərdidir. Ədalət prizmasından məsələyə yanaşmaq mütləqdir”.

❑ **Elşad PAŞASOY,**
**“Yeni Müsavat”**

---

# Oğruların artım tempi...



**Samir SARI**

**Dünən bir saatın içində Musavat.com saytında oxuduğum kriminal xəbərlərin natamam siyahısı beləydi:**

*Qaçırılmış “Niva” Maştağadan tapıldı;*

*“Binə” ticarət mərkəzində oğurluq edən şəxs saxlanıldı;*

*Yasamalda narkotik vasitələrin satışı ilə məşğul olan şəxs yaxalandı;*

*Avtomobillərdən oğurluq edən şəxslər saxlanılıb;*

*Yevlaxda silahlı insident olub, keçmiş məhkum qətlə yetirilib;*

*Ötən gün cinayət törətməkdə şübhəli bilinən 36 nəfər saxlanılıb;*

*Sabiq məhkum adam bıçaqlayıb...*

Göründüyü kimi, kriminogen durum nəzarət altındadır, cinayət törədənlər yaxalanır, saxlanılır, ifşa edilir, tutulur, qandallanır və s. Müqavimət göstərənlər olsa, təbii ki, zərərsizləşdirilər də. Amma bizim kriminal ünsürlər ağıllıdırlar, tez təslim olurlar, bilirlər ki, bir az dara-bara salsalar, aqibətləri amerikalı həmkarlarınınkı kimi olar. (Bildiyimiz kimi, ABŞ-da çox pisdir: yol polisi adi qayda pozanı saxlayanda adam əlini qeyri-ixtiyari cibinə atsa, təpəsinə güllə çaxırlar).

Düzdür, kriminogen durum nəzarət altındadır, amma yuxarıdakı hadisələr, oğurluq hallarının artım tempi göstərir ki, ölkədə əməlli-başlı kriminogen durum (KD) mövcuddur. Bəxtimiz onda gətirir ki, onu nəzarət altında saxlayırlar. KD nəzarət üstünə çıxsa, halımız yaman olar, yaman olar, vay-vay...

Hələ bunlar, oxumuş adamların sözü olmasın, aysberqin suda görünən hissəsidir (bilirsiniz ki, aysberqin üçdə ikisi suyun altında olur), hələ günortaya yaxın məhkəmə reportajları da gəlir, mənzərə tamamlanır. Düzdür, o məhkəmə reportajları əsasən 5-6 ay, 1 il öncə törədilmiş cinayətlərə dairdir, amma onlar da ölkədəki KD haqqında təsəvvür yaradır.

Sadəcə, məhkəmələrin çoxu dələduzluq cinayətlərinə aiddir. Heç demə, dələduzluq ölkəmizdə artıq adi cinayət olmaqdan çıxıb, sənaye səciyyəsi alıb, konveyer üsulu tətbiq edib. O məhkəmə reportajlarını oxuyanda görürsən ki, ölkədə atan-atanaymış. (Əslində müəllif “atmaq” felini heç sevmir, özümüzün gül kimi “kələk gəlmək”, “kəf gəlmək”, “hiylə ilə ələ keçirmək”, “dələduzluq etmək”, “aldadıb əlindən almaq”, “tovlamaq”, “başını bişirmək” kimi ifadələrimiz var).

Adam hərdən bir mənzili üç, bəzən beş adama satanların əmin-arxayınlığından, rahatlığından istəyir. Düşünürsən ki, belə edənlər nə fikirləşirmiş, görəsən? Yəni 75-100 min manat verib ev alan, sonra evinə daşınmaq istəyəndə artıq orada 75-100 min verib mənzil almış daha iki nəfərin olduğunu görən şəxslər şikayətçi olmayacaqmışlarmı? Bu faktla üzləşəndən sonra “eh, bəxtimiz gətirmədi, daha mənzil satanla üz-göz olmayaq, gedək, təzədən pul yığaq” deyə bu işdən vaz keçəcəkmişlərmi?

Vəziyyət belədir: ölkədə bir xeyli adam məsuliyyətsizcəsinə həbsxanaya düşməkdən qorxmur, onları ora aparan hər işi edirlər. Təbii ki, onların hər biri hansısa cinayətə qol qoyarkən işin üstünün açılmayacağına, özünün cəzasız qalacağına əmin olur, amma gec-tez yaxalanırlar.

Elələri olur ki, oğurladığı 50 manat pulun 25-ni xərcləməmiş ələ keçir, eləsi də olur, oğurladığı 5 milyonun 2 milyonunu xərcləyir, 1 milyonunu rüşvət verir, 5-6 il yatıb-çıxır, yerdə qalan 2 milyonu rahatca yeməyə başlayır.

Bunlar elitar oğrulardır, hər adama belə kriminogen avtobioqrafiya nəsib olmur.

Bəzən oğurluq və dələduzluq cinayətinin həddən artıq olmasına haqq qazandıranlar da olur, guya ki, işsizlik-filan var, adamlar iş tapmır, pul qazanmır deyə, oğurluğa, dələduzluğa əl atır. Bu kimi iddialar qismən haqlı ola bilər və haqlı olduğu təqdirdə də cinayətə haqq qazandırmır.

Ona qalsa, bu ölkədə minlərlə adam ağır işlərdə çalışır - karxanada “KamAZ”-a daş yükləyirlər, inşaat meydançalarında fəhlelik edirlər, küçə süpürürlər, iş avadanlıqları ilə birlikdə körpülərin altında durub müştəri gözləyirlər, maşın yuyur, təkər qaraldırlar və s. və i.a. Çox işləyirlər, az qazanırlar, amma oğurluq etmir, kimsəyə kəf gəlmirlər.

Amma siz oğurluq üstə tutulanlardan birini polisin əlindən alın, cibinə 100 manat basın və deyin ki, gedək, həyətimdə ağacların dibini bellə. Görək, gedəcəkmi? Bəlkə də bıçağa əl atacaq ki, mən sənin üçün kiməm, nəçiyəm, mənə belə alçaldıcı iş təklif edirsən...

**Anlamaq lazımdır ki, cinayətin yolu birdir: əvvəl-axır adamın adı kriminal xronika xəbərlərində keçir.**



# Dəxilsiz əhvalatlar

Zamin HACI
zaminhaci@gmail.com

**Soydaşlarımızın Amerikanı fəth eləməsi haqda xəbərləri gündəlik almaqdayıq. Kaliforniyada diş həkimi işləyən xanımdan yazmışdıq, orda qədim bir universitetdə dərs deyən Qubad müəllimi də özünüz bilirsiniz. Halbuki, Qubad bəy burda Narxoz-un müəllimi işləyirdi, 12 ayda ona o qədər cüzi maaş verirdilər ki, indi Amerikada həmin pulun ayda 12 qatını alır. İnşallah, bir gün ümid edək Qubad bəy orda Müsavat Partiyasının yerli özəyini yaratsın, Arif Hacılı da mühacirət eləsin, təzədən dava düşsün, partiya parçalansın. Müsibət olardı.**

Ümumiyyətlə, mənə elə gəlir yaxın illərdə Amerikanın prezidenti vəzifəsinə hansısa azərbaycanlının seçiləcəyinə şahid olacağıq. Çox mümkündür. Fikir versəniz, ölkələrimiz arasında oxşar cəhətlər çoxdur. Örnək üçün, bizdə hansısa həyət evinə hasar qayırmaq üçün gərək icra başçısının bığının altından keçəsən - haqqını verməsən bir daşı başqa daşın üstünə qoymaq mümkün deyildir. Eynilə Amerikada da prezident Tramp Meksika ilə sərhədə hasar çəkmək işində aciz qalıbdır. Hətta keçən ay hökumət üzvlərini maaşsız qoydu (o vaxt ki, bizdə camaatın maaşı artmışdı), lakin yerli deputatxana - konqres iki ayağını bir başmağa dirəyib hasarın çəkilməyinə icazə vermir. İndi Tramp deyir fövqəladə vəziyyət elan edəcəyəm. Bu zaman ordunu-zadı basıb hasarı qayıra bilərmiş. Görün vəziyyət nə qədər kritikdir. İnsan haqları əməllicə pozulur. Fövqəladə vəziyyət nə deməkdir?! Bizim deputat Rövşən Rzayevin yeri məlum. Amerikada insan hüquqlarının pozulması, fövqəladə vəziyyətin ləğvi haqda qanun layihəsini yenidən hazırlayardı, təəssüf ki, onu Qaçqınkoma sədr qoymuşuq.

Sözümün canı odur ki, amerikalı Donald Trampla biləcərili Donqar Qulamın bir qram fərqi yoxdur. İkisi də hasar çəkmək istəsə bir sürü instansiya keçməlidir.

Bu arada Elariz müəllimdən də qəmli xəbər var. Xalq artistimiz, korifey sənətçi, YAP-ın bütün seçki konsertlərində anşlaq yığan müğənni Elarizi nəzərdə tuturam. Keçən il sənətkar uca millətimizi dilxor edib "Qrinkard" lotereyası oynadı, udub Amerika vətəndaşı olmağa qərar verdi. İndi deyir orda hansısa restoranda işləyirmiş. Qab yuyurmuş. Zarafat edirəm, ancaq təxminən elə bir şeydir. Çünki Azərbaycanda xalq artisti olasan, gedib Amerikada Arizona ştatında kaktusların arasında, ilan mələyən çöldə benzindoldurma istasyonunda manıs işləyəsən (əslində cənab müğənni Nyu Yorkda çalışırmış, ancaq biz rəngləri tündləşdirməsək, yazının qara qəpiklik önəmi qalmaz), bunun böyük fərqi var. Sözgəlişi, 90-larda bizdə bir partiyanın çox hörmətli funksioneri də sonralar mühacirət eləmişdi, görənlər deyirdi Almaniyada hardasa dönər satır.

Gördüyünüz kimi, bizim insan kapitalına qoyduğumuz hörməti başqa ölkələrdə qoymurlar. Nə qədər pis, nə qədər çətin olsa da yenə insanın öz vətəni. Şair demişkən: "Azərbaycan deyiləndə ayağa dur ki, Polis gəlib səni oppalara aparmasın". O cümlədən, soğan olsun, nağd olsun. (Əslində bu məsəlin heç yeri deyildi, ancaq növbəti cümləyə keçmək üçün məcburam bunu yazım). Soğan demişkən, hazırda dükan-bazarda soğan od qiymətinədir, deyir Türkiyədə soğan qıtlığı olduğundan gəlib bizdən aparırmışlar, nəticədə burda qiymət qalxıbdır. "Bir millət, iki soğanlıq" - necə deyərlər. Deputat Aqil müəllim "Ay camaat, soğan əkin" deyərkən məhz bu ağır günləri düşünmüşdü. Hoydu-hoyduya qoydular, daha təklif də vermir.

**Yazını isə Stefan Sveyqə məxsus afyorizmlə bitirirəm: "Amerikanın əsası ədalətsizliklə qoyulub. Onu Xristofor Kolumb kəşf eləmişdi, ancaq Ameriqo Vespuççi-nin adını veriblər". Düzü, heç bilmirəm bu afyorizmin yazımıza nə dəxli vardı...**




# ABŞ-dan ermənilərə "qırmızı vərəqə" - Nikolun Qarabağa görə strateji səhvi

## Paşinyanın "iki stul" siyasəti fiasko oldu; inqilabçı baş nazir İrana Amerikanın sərt xəbərdarlığı ilə gedir; **erməni portalı:** "Nikol Paşinyan özünün qurduğu tələyə düşdü..."

**Vaşinqtonun Ermənistana qəzəbli olması haqda ötən sayımızda yazmışıq. Bu qəzəbin təzahürləri kimi qeyd eləmişik ki, bu günlərdə ABŞ Maliyyə Nazirliyinin Xarici aktivlər üzərində nəzarət idarəsi Suriyada fəaliyyət göstərən iki iranlı hüquqi şəxsə bu ölkəyə silah daşıdığı üçün sanksiya tətbiq edib və məlum olub ki, bunlar İran İslam Keşikçiləri korpusuna bağlı "Mahan Air" aviaşirkəti və həmin şirkətin Ermənistandakı satış üzrə baş agentliyi - "Flight Travel LLC" şirkətidir.**

**Ardınca Vaşinqton Ermənistan xarici işlər naziri Zoqrab Mnatsakanyanın ABŞ-a neçə vaxtdır hazırlıq görülən səfərini ləğv edib. Bildirilir ki, İrəvan bu səfərin üzərində çoxdandır işləyirmiş və xeyli səy göstəribmiş. Lakin Ermənistanın Rusiyaya sədaqət və mütilik göstəricisi kimi Suriyaya hərbi missiya göndərməsi işləri korlayıb. Ermənistan XİN bütün mümkün yollarla situasiyanı düzəltməyə və ABŞ dövlət katibi Mayk Pompeonun Mnatsakanyana dəvət göndərməsinə çalışsa da, bütün səylər boşa çıxıb.**

Ötən həftə isə ABŞ Dövlət Departamenti Paşinyan hökumətinin Rusiyanın xahişi və himayəsi altında Suriyaya sapyorlar da daxil olmaqla, 83 nəfərlik erməni humanitar missiya göndərməsinə olduqca sərt reaksiya vermiş, rəsmi İrəvanı Moskva ilə birgə "zalım Əsəd rejiminə dəstəkdə" ittiham eləmişdi...

*****

ABŞ-ın bu xəbərdarlıqları və sanksiyaları xüsusilə də baş nazir Nikol Paşinyanın ABŞ-ın üç düşmənindən biri olan İrana səfərinə sayılı günlər qalmış işğalçı ölkədə narahatlıq yaradıb.

"Mnatsakanyanın ABŞ səfərinin təxirə salınması açıq səmada şimşək effekti yaratdı və Paşinyan hökumətinin xarici siyasətinin uğursuzluğunu ortaya qoydu". "Yeni Müsavat"ın məlumatına görə, bu barədə qərbyönlü armenianreport.com-un dünənki baş məqaləsində deyilir.

"Yeri gəlmişkən, Suriyaya "erməni humanitar missiyası" göndərmək avantürası lap əvvəldən Ermənistanın həm siyasi dairələrində, həm də erməni cəmiyyətində diskussiya doğurmuşdu. Buna görə Paşinyanı təkcə Respublikaçılar Partiyası timsalında siyasi opponentlər yox, həm də mötədil müxalifət tənqid edirdi. Və haqqına. Çünki aydın idi ki, Rusiyanı "rahatlamağa" hesablanmış bu addım Qərbin, ilk növbədə də ABŞ-ın üreyincə olmayacaq - hansı ki, Bəşər Əsədin hakimiyyətdən getməsini istəyir. Xüsusən də bizim indiki hökumət bilməmiş deyildi ki, bütün demokratik dünya Bəşər Əsədin getməsini tələb edir, onu qalmasına isə Rusiya və İran kimi avtoritar dövlətlər çalışır", - deyə məqalədə qeyd olunur.

**Erməni portalı daha sonra yazır:** "Aydın idi ki, Paşinyan Suriyaya humanitar missiya göndərməklə Rusiya təzyiqi qarşısında geri çəkilib ki, Rusiya siyasi elitasında anti-erməni ovqatını azaltsın. Bununla da o, Moskvaya göstərmək istəyib ki, İrəvan özünün əsas xarici siyasət vektorunu dəyişmək fikrində deyil. Hərçənd gəlin insaflı olaq: Suriya məsələsində Paşinyanın seçim imkanı var idi və o, Rusiya yönlü Sərkisyan rejimi kimi neytrallığı saxlaya bilərdi. Bu neytrallıq da qarşı duran iki tərəfi - Qərblə Rusiya və İranı qane edərdi. Həqiqətən də Suriyaya "humanitar missiya" göndərmək bizim nəyimizə lazımdır əgər: birincisi, Suriyada faktiki, erməni icması qalmayıbsa, ikincisi, Suriya cəmiyyətinin böyük hissəsi Əsədə nifrət edir və ondan qurtulmaq istəyirsə. Üstəlik, bizim diplomatlar Ermənistanın yaxınlaşmaq istədiyi Qərb ölkələrinin Bəşərə qarşı olduqca neqativ münasibəti haqda yaxşı məlumatlıdırlar. Əfsus ki, Moskvanın şantajından və onun Qarabağ məsələsində Azərbaycanın xeyrinə mümkün mövqe dəyişikliyindən qorxan Paşinyan səksəndi və bütün Ermənistanda ağrılı şəkildə əks-səda verəcək strateji səhvə yol verdi".

**Bu yerdə məqalədə Nikolun inqilab öncəsi verdiyi vədlər və müxalifətdə ikən səsləndirdiyi bəyanat və şüarlar yada salınıb:** "Məgər Paşinyan deyildi hamıdan bərk qışqırıb deyən ki, daha müstəqil və ləyaqətli siyasət yürüdəcək? Yaxud məgər Paşinyan deyildi vəd verən ki, Avrasiya Birliyi və KTMT üzrə müttəfiqləri Ermənistana hörmət etməyə məcbur edəcək? Yenə o deyildimi bəyan edən ki, Sərkisyan rejimi Ermənistanı Rusiyanın forpostuna çevirib? O idi! Paşinyan isə əksər erməni politoloqların qeyd elədiyi kimi, özünün qurduğu tələyə düşdü. Öz şəxsi hədəfləri naminə öncə KTMT-nin baş katibi postunu itirdi və eyni səbəbdən hazırda qurumun bütün digər üzvləri ilə konfliktli durumdadır. Rusiyanın xoşuna gəlmək üçün amerikalıların rəğbətini itirdi. Yəni Suriyaya hərbçilər göndərməklə bir yandan Moskvanın yanında onsuz da "məxməri inqilabla" sıfırlanmış etimadını bərpa edə bilmədisə, o biri yandan Vaşinqtonda ciddi narazılıq yaratdı. Halbuki Serj Sərkisyana hər cür neqativ münasibətdən asılı olmayaraq, o, həm Rusiyanın, həm də Qərbin inamını saxlaya bilmişdi. Paşinyana isə "iki stul"da oturmaq müyəssər olmadı".

**Məqalə Nikol Paşinyana ünvanlı daha sərt sözlərlə bitir:** "Əslinə qalsa, işi populizmi təbliğ eləmək olanlardan nə gözləyirik ki? Məgər Ermənistanda güzəran yaxşılaşıb ki, ondan adekvat xarici siyasət də gözləyək? Nə barədə ki, Paşinyan mitinqlərdə ağız dolusu vədlər verirdi. Əfsus ki, yox. Ancaq hətta sıravi insana da aydındır ki, Vaşinqtonun İrəvana "qırmızı vərəqə"si - qırmızı xətdir, hansı xətti ki, bizim hakimiyyət düşünmədən adlayıb. ABŞ-ın belə bir aydın ismarışı qəmli nəticələr doğurmaya bilməz - nəyin qarşılığını ki, hamımız ödəməli olacağıq".

*****

**Təhlili məqalədən də göründüyü kimi, Nikol Paşinyanın "iki stul" siyasəti artıq tam iflas olmuş sayıla bilər. Üstəlik, indi o, İrana Ağ Evin sərt xəbərdarlığı və "qırmızı vərəqə"si ilə gedir. Ola bilsin, Ermənistan XİN-in başçısı Z.Mnatsakanyan kimi, onun da Vaşinqtona yolu bağlansın...**

❑ **"Yeni Müsavat"ın analitik xidməti**

YENİ MÜSAVAT
N 43 (7213) 23 fevral 2019

# Azay Quliyev Vyanada sülh prosesinin optimal modelini təklif etdi - detallar və tələblər

## “Uzanan münaqişələrin həlli: ATƏT-in alət və mexanizmləri” mövzusunda xüsusi debatda ATƏT PA-nın vitse-prezidenti məruzə etdi

**Fevralın 22-də Vyanada ATƏT Parlament Assambleyasının (ATƏT PA) 17-ci qış sessiyası işinə başlayıb. ATƏT PA-nın ibrinci komitəsi sayılan Siyasi Komitədə “Uzanan münaqişələrin həlli: ATƏT-in alət və mexanizmləri” mövzusunda xüsusi debat təşkil olunub. Debatda Azərbaycan nümayəndə heyətinin üzvü, ATƏT PA vitse-prezidenti Azay Quliyev çıxış edib.**

**Musavat.com onun çıxışını təqdim edir:**

- Digər münaqişələr haqqında məlumatların həmkarlarım tərəfindən təqdim ediləcəyini nəzərə alaraq, mən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hazırkı vəziyyəti haqqında sizi qısaca məlumatlandırmaq istərdim.

Son 3 ay ərzində biz Ermənistan və Azərbaycan arasında yüksək səviyyəli dialoqun yaradılması prosesində bir sıra müsbət siqnalların şahidi olmuşuq. Bu da öz növbəsində müəyyən müsbət nəticələrə gətirə biləcək substantiv danışıqların intensivləşdirilməsi ilə bağlı ehtiyatlı optimizmin yaranması üçün imkan yaradır.

Bundan əlavə, mən hər iki ölkənin xarici işlər nazirlərinin iştirakı ilə ATƏT-in Minsk Qrupu həmsədrlərinin Ermənistan və Azərbaycan xalqlarının sülhə hazırlanmasına ehtiyacın olması haqqında bu yaxınlıqda yaydıqları bəyanatı da müsbət qarşıladığımı bildirmək istərdim.




Düşünürəm ki, bu mümkündür. Lakin uzun müddətdir davam edən düşmənçiliyi nəzərə alaraq, digər məsələlərlə yanaşı, münaqişə tərəfləri arasında nəticəli danışıqlar şəraitin və ya etimadın yaradılması üçün bir neçə vacib addım atılmalıdır.

*Nə etmək mümkündür?*

Biz ən sadə addımlardan başlaya bilərik. Məsələn, bir neçə ay əvvəl rəsmi Bakı “hamının-hamıya” prinsipi əsasında Ermənistan və Azərbaycanda olan və Qırmızı xaç komitəsində qeydiyyatdan keçən arasında əsir və girovların mübadiləsinə dair təşəbbüslə çıxış etmişdir. İnanıram ki, bu, daha mürəkkəb məsələlərin həlli yolunda başlanğıc nöqtəsi rolunu oynaya bilər. Ancaq təəssüf ki, Ermənistan bu təklifə və Azərbaycanın xoş məramına hələ də müsbət reaksiya verməyib.

Biz həm də dərhal Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının dialoqunu başlaya bilərik. Əminəm ki, bu cür əlaqələrin qurulması hər iki icmaya sülh şəraitində birgəyaşayışın zərurətini daha yaxşı anlamağa, eləcə də onların birgə yaşamalı olduğu ərazinin yekun hüquqi statusunun müəyyən edilməsi üçün ən optimal yolu tapmağa yardım edəcək.

Ümid edirəm ki, regionumuzda sülhün və təhlükəsizliyin bərqərar olunması naminə Ermənistanın yeni nümayəndə heyəti bu iki aktual və perspektivli təklifi dəstəkləyəcək.

Yuxarıda qeyd etdiyim tədbirlərin həyata keçiriləcəyi təqdirdə biz daha çətin və qaçılmaz mərhələyə keçid edə bilərik.

Bu addımlar həm də artıq neçə ildir ki, ATƏT-in Minsk Qrupu həmsədr ölkələrinin dövlət başçılarının, yəni ABŞ, Rusiya Federasiyası və Fransa prezidentlərinin tələb etdiyi status-kvonun dəyişdirilməsini nəzərdə tutur.

Status-kvonun dəyişdirilməsi isə öz növbəsində Dağlıq Qarabağ regionuna aidiyyəti olmayan 7 rayonumuzun Ermənistan tərəfindən tədricən işğalının dayandırılmasını və azad edilməsini nəzərdə tutur.

Ümid edirəm ki, ölkələrimizin xarici işlər nazirləri mərhələli yanaşmanı tam olaraq dəstəkləyən Madrid prinsipləri formatında münaqişəni həll etməyə hazırdırlar.

Bir halda ki, biz bu gün hər iki ölkə xalqlarının sülh prosesinə hazırlanmasından danışırıq, o zaman mən Ermənistanın yeni rəhbərliyini Azərbaycanın işğal edilmiş ərazilərində bütün növ qanunsuz iqtisadi fəaliyyətləri və təbii resursların istifadəsini dayandırmağa çağırmaq istərdim.

Bundan əlavə, Ermənistanı qanunsuz hərbi təlimləri, suriyalı qaçqınların işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırılmasını, eləcə də Azərbaycan xalqının mədəni və tarixi abidələrinin dağıdılması və erməniləşdirilməsini dayandırmağa çağırıram.

**Bütün bunlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək və xalqlarımızı dayanıqlı və uzunmüddətli sülhə hazırlamaq üçün ən minimal tələblərdir.**

**❑ Musavat.com**

# “Gürcüstan-Azərbaycan konflikti yaratmaq istəyirlər”

## Politoloq: “Bu siyasətin arxasında erməni lobbisi və Moskvada bəzi qüvvələr dayanır, Türkiyə və Azərbaycan birgə hərəkət etməlidir...”

**Son zamanlar Gürcüstan hakimiyyətinin Ermənistanın xeyrinə addımlar atmaqdadır. Baş verənlərə nəzər salanda və faktları arxa-arxaya düzəndə bu qənaətə gəlmək üçün əsaslar olduğu görünür.**

Əvvəlcə dinc azərbaycanlılara qarşı qətliamlar həyata keçirmiş erməni terrorçuya abidə qoyulması, Ermənistana dəmiryolu xəttinin açılmasını nəzərdə tutan ilkin razılaşma, sonra “SOCAR-Georgia Gas” şirkətinin kommersiya istehlakçıları üçün qazın qiymətini martın 1-dən etibarən qaldıracağını elan etməsi, daha sonra Gürcüstanın iqtisadiyyat və dayanıqlı inkişaf naziri Georgi Kobuliyanın Rusiyadan qaz alacaqlarına dair açıqlaması bunun üzdə görünən əlamətləridir.

**Politoloq Məhəmməd Əsədullazadə** “Yeni Müsavat”a şərhində bildirdi ki, Gürcüstanda post-Saakaşvili dövründən başlayaraq biz Bdzina İvanaşvilinin kölgəsi altında formalaşan gürcü hakimiyyətinin Azərbaycanla strateji tərəfdaşlığının ruhuna uyğun olmayan siyasətin şahidi oluruq: “İvanaşvili ilk vaxtlardan başlayaraq Azərbaycana qarşı qaz şantajına və xüsusi ilə Ermənistana qarşı blokadanın aradan qaldırılmasına cəhdlər edib. Təbii ki, burada İvanaşvilinin Kremlə bağlılığının təsiri var. Rusiyada müəyyən qüvvələr var ki, Gürcüstanla Azərbaycan arasında strateji tərəfdaşlığa zərbə vurmağa çalışırlar. Baş verənlərin arxasında Rusiyadakı ermənipərəst dairələrin istəkləri dayanır. Qəsdən Azərbaycanı narazı salan addımlar atılır, gürcü-azərbaycanlı konfliktini yaratmaq istəyi açıq sezilməkdədir. Təəssüf ki, Gürcüstan hakimiyyəti həmin qüvvələrin bu planının icrasını tədricən həyata keçirməkdədir. Bu siyasət regionda ciddi dəyişikliklərə, xüsusilə bu ölkənin milli təhlükəsizliyinə mənfi təsir edəcək. Nəticədə Türkiyə və Azərbaycanla əlaqələrin zəifləməsinə gətirəcək. Rəsmi Tiflisin Rusiya və Ermənistanla tərəfdaşlığı inkişaf etdirməsi bu ölkə üçün heç də müsbət nə isə vəd etmir. Bu siyasət yalnız Ermənistan və Rusiyanın maraqlarına xidmət edir. Hətta Gürcüstan öz suverenliyinin əleyhinə olaraq, separatçı regionlardan Ermənistana quru və dəmir yolunun açılması planını icra etməyə hazırdır. İlk növbədə bu, özünə milli xəyanətdir. Qeyd edim ki, Fransa vətəndaşı olan prezident Salome Zurabişvili Fransadakı erməni lobbisi ilə sıx əməkdaşlıq edir. Hətta onların siyasi təsiri altındadır. Axalkalakidə erməni terrorçuya abidə ucaldılması, Azərbaycanın ədəbi mütəfəkkiri Nəriman Nərimanovun büstünü götürməsi ilk növbədə bu, gürcü hakimiyyətinin ölkəsində etnik qarşıdurmaya rəvac verməsi, ayrı-seçkiliyin bariz nümunəsidir. Ona görə də çox təhlükəli siyasət aparılır və bu siyasətin arxasında erməni lobbisi və Moskvada bəzi qüvvələr dayanır. Bunların planı Azərbaycanı regionda sıxışdırmaq və azərbaycanlı-gürcü konfliktini yaratmaqdır. Bu planı icra edən İvanaşvili birbaşa öz ölkəsinin də əleyhinə siyasət aparır. Nəticədə uduzan tərəf Gürcüstan olacaq. Ermənistan və Rusiyadan Gürcüstana yalnız problemlər qalacaq”.



Məhəmməd Əsədullazadə

**Ekspertin fikrincə, “Qazprom”la apardıqları danışıqlar, Azərbaycan qazına alternativ cəlb etmək Gürcüstanın enerji şaxələndirməsi deyil, Azərbaycana qarşı məkrli plandır:** “Hesab edirəm ki, ABŞ və Avropa rəsmi Tiflisin işğala stimul verməsi, Qərbin enerji layihələrinə qarşı Kremlin siyasətinin aləti olmasına təpki verəcək. Azərbaycan ilk növbədə ABŞ və Avropa ilə bu istiqamətdə danışıqlar aparmalıdır. Həmçinin Türkiyə də bu işə cəlb edilməlidir. Azərbaycan və Türkiyənin dəstəyi sayəsində iqtisadi inkişafa nail olan Gürcüstan regionun ümumi təhlükəsizliyini təhdid edən siyasət aparır. Kreml İvanaşvilinin əli Gürcüstanın NATO inteqrasiyasının qarşısını almaq istəyir. Regionda Gürcüstan iqtidarı, Ermənistan və Rusiya bir olub çox təhlükəli bir planı icra edirlər. Bu plan ABŞ-ın region siyasətinin qarşısının alınmasına Ermənistan Rusiya quru əlaqələrinin bərpasına xidmət etməklə, Azərbaycanın enerji siyasətinə təhdid yaradır. Tiflisin bu addımlarının qarşısını almaq üçün Türkiyə və Azərbaycan rəsmiləri birgə iş aparmalıdırlar.

**❑ Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# Azərbaycanlı biznesmen Rusiya üçün kosmodrom tikəcək

## Tikinti işlərinə ölkəmizdən də işçilərin cəlb olunacağı gözlənilir...

**Azərbaycan əsilli Rusiya biznesmeni Araz Ağalarov dövlətdən yeni sifariş alır. Söhbət xeyli müddətdir tikintisi yubadılan "Şərq" kosmodromunda işləri tamamlamaqdan gedir. Rusiyanın Baykanurdan asılılığını aradan qaldırması üçün nəzərdə tutulan "Şərq" kosmodromunun tikintisinə 2011-ci ildə başlanıb.**

Tikinti işlərinin tamamlanma müddəti dəfələrlə uzadılıb. Bu prosesi daim əmək haqqının ödənməməsinə qarşı etiraz aksiyaları, cinayət işləri müşayiət edib. Rusiya Baş Prokurorluğunun məlumatına görə, tikinti işlərinin yubanması nəticəsində dövlətə dəyən zərərin məbləği 10 milyard rubl təşkil edir. Baş nazir Medvedyevin dediyinə görə isə kosmodromun 2018-ci ildə hazır olması nəzərdə tutulurdu, lakin indiyədək tikinti işlərinin cəmi 25 faizi görülüb. İndiyədək "Şərq"də tikinti işləri ilə bağlı 140 cinayət işi qaldırılıb, onların əsasında 50 nəfər həbs olunub.

Qeyd edək ki, raket buraxılışı üçün ilkin infrastruktur olmadan kosmodromun özünün dəyəri 100 milyard rubl hesablanırdı. İlkin infrastruktur və yeni Siolkovski adlı şəhərin inşası üçün 160 milyard rubl, ümumilikdə isə 300 milyard rubl nəzərdə tutulurdu.


Araz Ağalarov

Rusiya hazırda kosmodromda "Anqara" ağır daşıyıcı raketinin buraxılışı üçün zəruri infrastrukturun yaradılması işini sürətləndirməyə çalışır. Buraxılışın pilotsuz formada 2021-ci ildə, pilotla isə bundan 2 il sonra həyata keçirilməsi planlaşdırılır.

Ümumilikdə 2017-2025-ci illərdə Rusiya kosmodromlarının inkişafı və Rusiyanın kosmik fəaliyyətinin təmin olunmasını nəzərdə tutan dövlət proqramına ilkin olaraq 750 milyard rublun xərclənməsi nəzərdə tutulur. Lakin neftin dünya bazar qiymətinin aşağı düşməsi, Rusiyanın Avropa və ABŞ sanksiyalarına məruz qalması üzündən bu məbləğ 500 milyard rubla endirilib ki, bunun da əsas hissəsi məhz "Şərq"in "Anqara" üçün hazırlanmasına yönəldiləcək. Neftin qiymətinin qalxması Rusiyaya bu işləri də sürətləndirmək imkanı qazandırır. Buna görə də hökumət Uzaq Şərqdə iş təcrübəsi olan şirkətin xidmətlərindən yararlanmaq niyyətindədir.

**RBK-nın məlumatına görə, bu şirkət qismində A.Ağalarovun "Crocus Group"u çıxış edir. Çünki "Roskosmos" artıq əvvəlki icraçı ilə müqaviləni dayandırıb. "Crocus Group" isə faktiki olaraq, ölkənin şərqində işləmək təcrübəsi olan yeganə normal şirkətdir.**

"Crocus Group"un prezidenti A.Ağalarov öz mətbuat xidməti vasitəsilə bəyan edib ki, hökumət qərar verərsə, "Şərq"də tikintini başa çatdırmağa hazırdır: "Rus adasında Uzaq Şərq Federal Universitetinin tikintisindəki təcrübəmizi nəzərə alsaq, bizim şirkətimiz bu problemi həll etməyə qadirdir".

**A.Ağalarova 40 milyard rublluq tikinti işlərinin həvalə olunması nəzərdə tutulur. Onun özü bir neçə dəfə bəyan edib ki, dövlət sifarişlərini icra etmək çox çətin olduğuna görə adətən, tenderlərə qatılmır:** "Mən belə işlərə yalnız hansısa tapşırıq olanda girişirəm. Dövlət tenderlərində mən iştirak etmirəm".

Reallıqda isə Ağalarov artıq 2013-cü ildən bəridir dövlət sifarişlərinin icraçısıdır. Belə ki, 2013-cü ildə "Crocus Group" Uzaq Şərq Federal Universitetini tikib. Daha sonra Kalininqrad və Rostov-Donda dünya çempionatı üçün stadionların tikintisini həyata keçirib. "Crocus Group"un "Şərq"də "Anqara"nın buraxılışı üçün lazım olan ilkin infrastrukturu inşa etməlidir.

Onu da qeyd edək ki, Rusiya mətbuatında Uzaq Şərq Federal Universitetini inşa edərkən A.Ağalarovun Asiya mənşəli işçilərin əməyindən geniş yararlandığına dair məlumatlar yayılmışdı. Rusiya normalarından az qala ikiqat aşağı əmək haqqı ilə Uzaq Şərqin çətin iqlim şəraitində işlədilən asiyalıları hətta "Ağalarovun asiyalı qulları" da adlandırıdılar. Ehtimal olunur ki, biznesmen yenidən Asiya mənşəli işçiləri işə cəlb etməyə üstünlük verəcək.

Azərbaycandan da ixtisaslı işçilərin tikintiyə cəlb olunacağı gözlənilir. "Yeni Müsavat"ın əldə etdiyi məlumata görə, bəzi şirkətlər Azərbaycandan ixtisaslı fəhlələri Amurda həyata keçiriləcək layihədə işləmək üçün toplamağa başlayıblar. Ehtimal olunur ki, söhbət məhz "Şərq" kosmodromundakı işlərdən gedir.

❑ **DÜNYA, "Yeni Müsavat"**

# "Məhkumları istirahət günləri güllələyirdilər" - ölüm hökmünün ləğvinin 21 ili...

## "Dustaq kamera yoldaşları ilə sağollaşırdı, cavabında eşidirdi: "Allah sənə rəhmət eləsin!"; hüquqşünaslar ölüm cəzasının qaytarılmasına qarşıdır



**1998-ci il fevralın 10-da Azərbaycanda ölüm cəzası ləğv olunub. Bundan artıq 21 il ötür. 21 fevral 1998-ci ildə "Cinayət Məcəlləsi, Cinayət-Prosessual Məcəlləsi və İslah-Əmək Məcəlləsinə dəyişikliklərin edilməsi" haqqında Azərbaycan Respublikasının qanunu qüvvəyə minib.**

Azərbaycan Avropa Şurasına üzv olmadan öncə ölüm hökmünü ləğv edərək, barələrində belə hökm çıxarılmış insanların cəzasını ömürlük həbs cəzası ilə əvəzlədi.

Ölüm cəzası ləğv olunan zaman Azərbaycanda ölüm cəzası ömürlük azadlıqdan məhrumetmə ilə əvəzlənmiş 127 məhkum olub. Qeyri-rəsmi məlumatlara görə, hazırda onlardan 80 nəfərə yaxını həbsxanada cəza çəkir.

Penitensiar Xidmətdən bildirilib ki, Qobustan həbsxanasında ölüm cəzasının ləğvindən sonra məhkəmənin hökmü ilə ömürlük azadlıqdan məhrum edilmiş 200-ə yaxın məhkum cəza çəkir.

Onların bəzilərinin bu il Novruz bayramında gözlənilən əfv fərmanı ilə azadlığa buraxılacağı istisna edilmir. Xüsusən də keçmiş OMON-çular Elçin Əmiraslanov, Arif Kazımov və Səfa Poladovun əfvə düşəcəyi bildirilir.

Onlar uzun illərdir cəza çəkirlər, sağlamlıqlarını itiriblər, üstəlik digər OMON-çular azad edilib. O baxımdan əfvə düşmələri gözlənilən haldır.

Ümumilikdə isə ölüm hökmünün ləğvindən sonra Azərbaycanda kriminal hadisələr, xüsusi amansızlıqla qətl törətmək, iki və daha çox adamı öldürmək faktları azalmayıb.

Bəzən ölüm hökmünün bərpası ilə bağlı təkliflər səslənir. Bunu ABŞ-ın bəzi ştatlarında, o cümlədən bir neçə Avropa dövlətlərində ölüm hökmünün olması ilə izah edirlər.

İran, Səudiyyə Ərəbistanı, İraq və Pakistan ölüm hökmü cəzasının verilməsində, icrasında liderliklərini qoruyur. Çin ölüm hökmünü gizlədən ölkələr içərisində liderdir.

Avropa və MDB ölkələri arasında yeganə ölkə Belarusdur ki, orada ölüm hökmü hələ də qalır. Qvineya və Monqolustanda ölüm hökmü ləğv edildikdən sonra, dünya üzrə 142 ölkədə bu cəza növündən istifadə edilmir.

**Hüquq Müdafiə Mərkəzinin direktoru Eldar Zeynalov** sputnik.az-a deyib ki, sonuncu edam edilmiş şəxs (cəzanı ağırlaşdıran hallar nəzərə alınmaqla iki və daha çox şəxsi qətlə yetirmə maddəsi ilə ittiham edilib) Salman Aslanoviç Fərmanov olub.

Hüquq müdafiəçisinin sözlərinə görə, adətən məhkumları istirahət günləri güllələyirdilər:

"Məhkumlar qapıya yaxınlaşır, nəfəslikdən əllərini qandalın taxılması üçün bayıra uzadırdılar. Gözətçi qandalı taxandan sonra qapını açır və ölümə məhkum edilmiş dustağı zirzəmiyə aparırdı.

Yolüstü dustaq kamera yoldaşları ilə sağollaşır, onlara azadlıq arzu edirdi. Cavabında isə bu sözləri eşidirdi: "Allah sənə rəhmət eləsin!"

Zirzəmidə əvvəlcə ona bağışlanmaqdan imtina edildiyini deyirlər, sonra isə sonuncu otağa apararaq başının arxasına gülləni vururlar".

Eyni zamanda, tədqiqatçıların və şahidlərin xatirələrinə görə, ölümə məhkum edilmişlər güllənməyə aparılarkən fərqli reaksiyalar verirlər - bəziləri susurlar, bəziləri mərhəmət istəyirlər.

Bəziləri müqavimət göstərirlər və bəziləri ölüm hökmü icra edilməmişdən əvvəl infarkt nəticəsində ölürlər. 3, 14 və 20 fevral tarixlərində 8 nəfəri güllələyiblər, doqquzuncu isə ölüm hökmünün icrasına qədər qalmayıb.

Hüquq müdafiəçisi valideynlərinin 1937-də edam edildiyini xatırladıb və bütövlükdə ölüm hökmünün əleyhinə olduğunu söyləyib.

**Sabiq polis rəisi Mahmud Hacıyev** isə "Yeni Müsavat"a bildirdi ki, ölüm hökmünün bərpasının əleyhinədir: "Bu mənim subyektiv mövqeyimdir, hüquqşünaslar fərqli fikirləşə bilərlər. Amma biz ölüm hökmünü qaytarsaq görəcəyik ki, ağır cinayətlər azalmayıb.

Çünki ilk növbədə insanların maddi rifahı yaxşılaşmalıdır, hüquqi maarifləndirmə olmalıdır, narkomaniya, fahişəlik aradan qalxmalıdır, cəmiyyətin psixoloji ovqatı düzəlməlidir".

**M.Hacıyev hesab edir ki, maddələrin və cəzaların ağırlaşdırılmasına ehtiyac yoxdur:** "Yeltsinin prezident olduğu dövrdə 10-a yaxın hüquq institutunun alimləri, dosentləri ona müraciət elədi ki, Rusiyada ölüm hökmünü qaytarsın. Amma bərpa elədi.

Stalin vaxtı bütün cinayətlərin qarşısını almaq üçün cəza hissəsində müddət artırıldı. Amma nə xeyri oldu? Üstəlik, indi 1948-50-ci illər deyil. Cəzanın xüsusi çəkisinin artırılmasına zərurət yoxdur".

**Müsahibimiz deyir ki, məişət zəminində bir gənc oturduğu kafedə adi sözə görə qarşısındakını bıçaqlayıb öldürürsə, bu onun psixoloji vəziyyətindən xəbər verir:**

"O cavanın intellekti olsa öldürməz. İnsan varsa, cinayət də var. Kommunistlər deyirdilər ki, sosializm tam qələbə çalıb, kommunizmə gedirik və kommunizmdə cinayət olmayacaq.

Yəni biz çürük təfəkkürə qayıda bilmərik. Mən cəzaların ağırlaşdırılmasının əleyhinəyəm. Bu, düzgün metod deyil və maarifləndirici tədbirlər görülməlidir, sosial-iqtisadi şərait yaxşılaşmalıdır".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



**ATƏT-in Minsk Qrupunun ABŞ, Rusiya və Fransadan olan həmsədrlərinin regiona daha bir nəticəsiz səfəri başa çatdı. Azərbaycanda və Ermənistanda olan vasitəçi-diplomatlar ənənəyə uyğun olaraq, iki ölkənin rəhbərləri və xarici işlər nazirləri ilə görüşdülər. Və ənənəyə uyğun olaraq da heç bir yaddaqalan, sülh prosesinə təkan verə biləcək açıqlama, bəyanat və ya təklif vermədilər.**






# Həmsədrlər yenə gəldilər-getdilər, "Qarabağ yükü" isə yerindədir

## Sülh prosesi təzədən dalana girir; nizamlama ilə bağlı ümidlər niyə doğrulmur? **Politoloq:** "Ermənilərin ölkədən qaçışı kritik hal alıb, Azərbaycan bu tendensiyanı gücləndirmək siyasəti aparmalıdır..."

Budəfəki səfər Azərbaycan və Ermənistan XİN başçıları - Elmar Məmmədyarov və Zoqrab Mnatsakanyanın Münhendə nəzərdə tutulan görüşünün, bütün ciddi gözləntilərə rəğmən, reallaşmamasından az sonraya təsadüf edir. Halbuki həmin görüşədək nazirlər iki dəfə - Milanda və Parisdə bir araya gələrək çoxsaatlıq müzakirə aparmış, hətta "xalqları sülhə hazırlamağın zəruriliyi" barədə razılığa gəlmişdilər. Həmsədrlər isə bu anlaşmanı alqışlayan bəyanat yaymışdılar. Bundan əlavə, Azərbaycan və Ermənistan rəhbərlərinin ilk rəsmi görüşünə hazırlıq getdiyi də yayılan ehtimallar sırasında idi.

**Lakin üstündən çox keçməmiş Ermənistanın baş naziri Nikol Paşinyan sülhə kövrək ümidləri dəfn edən açıqlama verdi.** Paşinyan bildirdi ki, İrəvan sülh əvəzinə torpaq variantını nəzərdən keçirmir. Onun sözlərindən belə qənaət hasil oldu ki, işğalçı tərəf torpaq qaytarmağa hazırlaşmır. İstisna deyil ki, bunu o, daxildə özünə qarşı təzyiqləri səngitmək və Rusiyanın təhdidi altında edib. Çünki son vaxtlar Qərbin, daha dəqiqi, ABŞ-ın Qarabağ məsələsində fəallaşması Moskvanı qane eləmirdi. O da maraqlıdır ki, Münhendə Məmmədyarov-Mnatsakanyan görüşü məhz erməni XİN başçısının Rusiya xarici işlər naziri Sergey Lavrovla təkbətək görüşündən sonra təxirə salınmışdı.

*****

Bəs baş verənlər fonunda bölgə səfərindən sonra həmsədrlərdən hansısa konstruktiv təşəbbüs gözləmək mümkündürmü?

**Politoloq Rasim Ağayevə** görə, hazırda Minsk Qrupu həmsədrlərinin fəaliyyəti üçün elə də əlverişli şərait yoxdur, ona görə ki, Ermənistandakı siyasi qüvvələr situasiyanı real qiymətləndirməyə və məsələdə sıçrayış etməyə hazır deyil. "Yeni Müsavat"ın məlumatına görə, bu barədə o, rusdilli minval.az saytına müsahibəsində deyib.

"İndi məhz erməni tərəfi ciddi danışıqlar üçün təkan verməlidir. Ancaq bu ölkədə baş verənlər, orada səslənən fikirlər sübut edir ki, ermənilər bu təkana hazır deyillər. Dağlıq Qarabağ məsələsi orada siyasi qüvvələr üçün faktiki surətdə siyasi olimpdə özünütəsdiq üçün "bilet" rolunu oynayır", - deyə politoloq bildirib.

**Onun sözlərinə görə, erməni tərəfi özünü elə aparır ki, guya ciddi danışıqlara məhz Azərbaycan hazır deyil, məhz Bakı anlaşmaya gəlmək istəmir:** "Ümumiyyətlə, əvvəllər deyirdilər ki, heç bir danışıqdan söhbət gedə bilməz, Qarabağ bizimdir, vəssalam. Amma indi yenə hansısa mikroskopik hərəkətlilik var".

**Rasim Ağayev hesab edir ki, mövcud vəziyyətdə Ermənistandakı sosial vəziyyət həlledici önəm daşıyır:** "Ermənistan vətəndaşlarının ölkədən qaçışı artıq kritik xarakter alıb. Azərbaycanın siyasəti də bu tendensiyanı gücləndirməyə yönəlməlidir... Danışıqlarda Azərbaycanın mövqeyi Ermənistanla müqayisədə qat-qat güclüdür. O ayrı məsələ ki, Moskva özünün "ikili oyunu"nu davam etdirir. Əgər Rusiyanın dəstəyi olmasaydı, zamanında hər şey ayrı cür olardı. Ancaq bu, ayrı mövzudur. Bunu ona görə xatırlatdım ki, məsələdə Kremlin ya-


Rasim Ağayev

naşması xüsusi əhəmiyyət kəsb edir. Lakin əsas odur ki, aparıcı güclər ermənilərə təsir eləməlidir. Əfsus ki, bunu görmürük və yaxın zamanda belə bir şeyə ümidlənməyə dəymir. Rusiya və Qərbə bu problem vasitəsilə və ermənilərin yazıq durumu nəzərə alınaraq, burada öz siyasətini aparmaq və mövqelərini möhkəmləndirmək sərf edir".

**Ekspertə görə, həmsədrlər Azərbaycanın mövqeyinə zidd heç bir şey təklif edə bilməzlər.** "Qoy onlar torpaqlarımızı işğal edən ermənilərə təzyiq eləsinlər. Qoy ermənilər bəyan eləsinlər ki, torpaqları azad eləməyə hazırdırlar və prosesi ölü nöqtədən çıxarmaq üçün addımlar atsınlar. Ancaq onlar bunu etmirlər, o səbəbə ki, öz mövqelərini saxlamaq istəyirlər. Qərbdə də yeni heç bir şey baş verməyib ki, vasitəçilərin mövqeyində dəyişikliklərdən danışaq. Ermənilər öz ərazi iddialarında təkid edirlər, Qərb isə özünü elə aparır ki, sanki hər şey normaldır. Bu məntiqə söykənsək, onda erməniləri yol gətirmək üçün yeganə yolun hərbi güc olduğunu söyləyənlər haqlıdırlar", - deyə politoloq sonda əlavə edib.

*****

**Yaranmış durumda Azərbaycan və Ermənistan rəhbərləri arasında ilk rəsmi görüşün tezliklə reallaşacağından söz açmağa dəymir.** Konfliktin həllində mühüm rıçaqlara malik Kremldən də bu yöndə hələ ki hərəkətlilik görünmür. Başqa yandan, görüş xətrinə görüş Bakıya lazım deyil. İndiyədək onlarla belə yüksək səviyyəli görüşlər keçirilib - özü də müstəsna olaraq, Rusiyanın vasitəçiliyi ilə. "Qarabağ yükü" isə hələ də köhnə yerindədir...

"İndiki vəziyyətdə Azərbaycan və Ermənistan rəhbərləri səviyyəsində görüşə hazırlığın getdiyini iddia etmək çətindir. Çünki Münhen Təhlükəsizlik Konfransı çərçivəsində Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin əvvəldən elan edilmiş görüşü baş tutmadı". Bunu teleqraf.com-a **politoloq Natiq Miri** deyib. Onun sözlərinə görə, adətən, dövlət başçıları səviyyəsində görüşə hazırlığı tamamlamaq üçün xarici işlər nazirlərinin görüşləri təşkil edilir.

"Bundan başqa, dövlət başçılarının görüşməsi üçün konkret anlaşmaların əldə edilməsinə ehtiyac var. Amma mediada yayılan məlumatlara görə, ayaqüstü olsa da istər nazirlər, istərsə də dövlət rəhbərləri səviyyəsində baş tutan görüşlərdə konkret məsələlər üzrə danışıqların aparılması ilə bağlı anlaşmaların əldə edilməsi təsdiqlənməyib. Buna görə də Azərbaycan tərəfinin görüş xatirinə görüşə razılıq verəcəyinə inanmıram. Prezident dəfələrlə bəyan edib ki, Azərbaycan dövləti Dağlıq Qarabağ münaqişəsi üzrə protokol xatirinə görüşlərə getmək niyyətində deyil", - deyə o qeyd edib.

**Dövlət rəhbərləri arasında növbəti görüşün ABŞ-da keçirilməsi ilə bağlı yayılmış iddiaya gəlincə, politoloq düşünür ki, bu, sırf informasiya olaraq dövriyyəyə buraxılıb.** "Ancaq bu məlumatların ciddi əsaslara dayandığını düşünmürəm. Düzdür, ABŞ son zamanlarda Qarabağ məsələsinin həlli ilə bağlı fəallaşıb. Zaman-zaman ABŞ-dan Azərbaycan və Ermənistan rəhbərlərinə telefon zəngləri edilib. Əlbəttə, ABŞ-ın bu fəallığı Rusiya rəhbərliyini narahat etməyə bilməz" - ekspert bildirib.

**Natiq Miri vurğulayıb ki, Rusiya heç bir halda Qarabağ prosesinin moderatorluğunun digər dövlətlərə keçməsini istəmir:** "Buna görə də bir müddət əvvəl Rusiya xarici işlər naziri Sergey Lavrovun vasitəçiliyi ilə Münhendə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünün keçiriləcəyi ilə bağlı məlumat dövriyyəyə buraxıldı. Amma bu görüş baş tutmadı. Lavrov Münhendə təkcə Ermənistanın xarici işlər naziri Mnatsakanyanla görüşdü. Məsələ bununla bağlandı. Görüşün hansı səbəbdən baş tutmamasına da açıqlama verilmədi. Düşünürəm ki, bu, ortada hansısa anlaşılmazlığın olduğunu göstərdi. Ola bilsin, Azərbaycan tərəfi yaranmış vəziyyətdən razı deyil. Ümumiyyətlə, son proseslərlə bağlı məlumatlar gizli saxlanıldığı üçün proqnoz vermək çox çətindir. Buna görə də dövlət başçıları səviyyəsində ABŞ-da görüşün keçiriləcəyini iddia etmək çətindir".

**Beləcə, Qarabağ danışıqlarında növbəti qeyri-müəyyənlik mərhələsinin başladığını söyləmək olar. Bu isə müharibə riskinin artması deməkdir...**

Yeni MÜSAVAT
N 43 (7213) 23 fevral 2019

**Hazırda hökumətin ən prioritet sahələrindən biri də kənd təsərrüfatıdır. Qeyri-neft sektorunun inkişafını hədəfləyən hökumət aqrar sahədə istehsalın artırılması, daxili tələbatın yerli istehsal hesabına ödənilməsi və ixracın genişləndirilməsinə çalışır. Bəs görəsən, bu sahənin çatışmazlıqları nədir və onların həlli üçün hansı işlər görülür?**



# "KTN xidmət qurumuna çevrilir"

## Nicat Nəsirli: "Yeni kooperasiya modelləri ortaya qoyulmalıdır"

*"Yeni Müsavat" bu mövzuda kənd təsərrüfatı sahəsi üzrə ekspert Nicat Nəsirli ilə müsahibəni təqdim edir.*

***- Nicat bəy, bildiyiniz kimi kənd təsərrüfatı bazarında qiymətlər artıb. Halbuki ölkədə həmin məhsullardan kifayət qədər istehsal edildiyi bildirilir. Əgər məhsul qıtlığı yoxdursa, qiymət artımının səbəbi nədir? Saxlanma problemi və ötən müddət ərzində məhsulda itki, çürümə və sair baş verməsi qiymətlərə təsir edirmi?***

- Hər ilin bu mövsümündə əsasən kənd təsərrüfatı məhsullarında bahalaşma baş verir. Burada sizin qeyd etdiyiniz faktorlar da var, buna stress faktor deyirik. Qəfildən havalar soyuyur və insanların qidaya olan tələbatı artır. Burada tələbin yüksəlməsi bir nömrəli məsələdir. Sualın ikinci hissəsi isə belədir ki, tələbat artırsa, istehsal bu davamlılığı niyə təmin edə bilmir? Bizim problemlərimiz də məhz bu nöqtədədir. Statistik göstəricilərə görə, biz bir çox məhsullar üzrə ölkə tələbatına uyğun məhsul istehsal edirik, ancaq onun saxlanmasında, anbarlanmasında, torpaqdan süfrəyə qədər olan mərhələlərində bizim itkilərimiz olur. Birinci məsələ logistika məsələsidir. Azərbaycanda davamlı olaraq məhsul istehsal edən təxminən 854 mindən çox kiçik fermer təsərrüfatı var. Bütün dünyada kiçik ailə təsərrüfatları istehsalın zənciridir, davamlılığıdır. Bizdə kiçik ailə təsərrüfatları həm maddi olaraq, həm maarifçilik baxımından, həm texnoloji baxımdan zəif olduğuna görə, o təsərrüfatlarda ciddi itkilər baş verir. Bu da nəticədə mövsümi qiymət təlatümlərinə gətirib çıxarır. Böyük şirkətlərimiz var, son illər aqroparklar yaradılıb, modernizasiya gedir. Ancaq onların böyük əksəriyyətinin auditoriyası xarici ölkələrdir, ən yaxşı halda Rusiyadır. Onlar böyük vəsaitlər qoyub böyük bazarlara çıxmaq istəyirlər. Ancaq ölkəni təmin edən kiçik təsərrüfatlardır. Bu bir iqtisadi tsikldir və mütləq bunun tədqiqinə ehtiyac var ki, bu itkilər harada baş verir. İki aydan sonra Azərbaycanda faraş məhsul mövsümü başlayacaq və itki orada baş verəcək. Eyni vaxtda Cəlilabadda, Tovuzda və digər bölgələrimizdə faraş kartof yetişəcək, böyük həcmdə, təxminən 500 min tona yaxın məhsul istehsal olunacaq. Biz bunu realizə edə bilmədiyimizə, xarici bazarlar da məhsulu sürətlə qəbul edə bilmədiyinə görə, fermer məcbur olacaq bu məhsulu piramida kimi sahədə yığsın. Burada isə kartof yaş məhsul olduğu üçün itkiyə məruz qalacaq, çəkisi itəcək, nəticədə tərkibi itəcək. Aprel ayından başlayır bu mərhələ, ondan sonra digər tərəvəz məhsulları, qərzəkli məhsullar çıxacaq. Noyabr ayının sonuna qədər istehsal prosesi davam edəcək. Bütün bu istehsal prosesində bizim mütləq şəkildə itkilərimiz olur. Problem də məhz buradadır. Ölkədə daxili tələbata uyğun məhsul istehsalı var. Bazar nə deyir ? Bazar deyir ki, dön geriyə bax, arxada qoyduğun 10 aylıq dövrdə itkilər var.

***- Saxlama anbarlarının tikilməsi çıxış yoludurmu?***

- Bəli, çıxış yollarından biridir. Vaxtilə Azərbaycanda çox böyük həcmdə saxlama anbarları tikildi. Amma özünü realizə eləmədi. Çünki həmin anbarların bir çoxunun təyinatı aydın deyildi. Mənim müşahidələrim onu deməyə əsas verir ki, elə bölgələrdə elə anbarlar tikildi ki, əlverişli olmadı. Hər anbarın öz texnologiyası var. Məsələn, Azərbaycanda soğan saxlamaq üçün anbar tikilməyib, halbuki ölkəmizdə ən çox istehsal olunan məhsul soğandır. Bu məhsulun saxlanma texnologiyası tamamilə fərqlidir. Kartofla soğanı bir anbarda saxlamaq olmaz. Anbar tikildi və məlum oldu ki, həmin bölgədə yetişən meyvə-tərəvəz bu anbarın içində saxlanıla bilməz. Burada texnologiya məsələsində fərqlər var. Və ya kiçik ailə təsərrüfatları bu anbarlardan effektiv istifadə edə bilmədi, burada mütləq dövlət güzəştlərinə, subsidiyalaşmaya ehtiyac var idi. Fermer öz kiçik həcmdə məhsulunu aparıb anbara qoyurdu, hər gün onun saxlanma qiyməti artırdı. Fermer də yüksək keyfiyyətli məhsul istehsal etmədiyinə görə, onu gətirib bazarda həmin qiymətə realizə edə bilmirdi, rəqabətə dözə bilmirdi. Burada mürəkkəb tsikllər var, mütləq bu sahəyə cavabdeh olan mərkəzi icra hakimiyyəti qurumları, birinci problemin təhlilini aparmalıdırlar ki, itkilər haradadır. Bu yaxınlarda aqrolizinq sisteminin tamamilə yenidən qurulması üçün, çox sadə bir metoda əl atdılar. Gedib kəndlinin, fermerin yanında oturdular və soruşdular ki, texnikan varmı, nəyə görə yoxdur. Fermer özü problemini dedi. Nəticədə o fikir ortaya çıxdı ki, aqrolizinq sistemini dövlətin nəzarətindən çıxartmaq lazımdır. Bu bir iqtisadi biznes prosesidir. Dövlət bunu nəyə görə əlində saxlamalıdır. Verilən elana görə artıq mart ayından hər bir fermer öz istehsal sahəsinə uyğun kiçik həcmli texnika ala bilər. Fermer banka gedəcək, bankla anlaşacaq, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən də müvafiq güzəşt olunacaq. Burada bir biznes prosesi əmələ gələcək. İcazə verin, fermer nə əkmək istədiyinə, hansı texnologiyanı almaq istədiyinə özü qərar versin. Bu mərhələ mənim çox xoşuma gəldi. Növbəti aydan başlayacaq bu proses bank sektorunu da hərəkətə gətirəcək. Aqrar sektorun sığorta baxımından əlverişsiz olduğu deyilir, risklərin çox olduğu vurğulanır. Bank sektorunun birinci texnologiya sahəsinə gəlməsi çox effektiv olacaq.

***- Növbəti sualım da itkilərlə bağlı olacaq. Sizcə, aqrar məhsullarla bağlı yetərincə xırda emal müəssisələrinin olmaması da itkiləri artırmırmı?***

- Bəli, itkilərdən danışırıqsa, mütləq bunu da qeyd etməliyik. Fermer məhsulu yığır və hesab edir ki, mütləq kimsə onu gəlib almalıdır. Ancaq o, almanın emal texnologiyasını mənimsəsə, almanın cemini hazırlasa, şirəsini hazırlasa, almanı quruda bilsə və sair konserv məhsullar hazırlasa, itki də az olar. Sadəcə olaraq bir qida mühəndisi gəlib sxemi qura bilsə, heç fermer o almanı yaş şəkildə satmağa ehtiyac görməz, daha çox qazanar. Biz bu gün bir çox xarici bazarlarda öz mövqelərimizi itirmişik, xüsusən də Rusiyada.

***- Rusiya artıq daxili tələbatını ödəmək üçün öz aqrar məhsullarının istehsalına başlayıb...***

- Mən bir müddət öncə Rusiyada idim, orada bazarın vəziyyətini, tələbini müşahidə elədim və ölkəmizdə də müvafiq instansiyalara çatdırdım. Rusiya çox ciddi problemə çevrilməkdədir və bir neçə ildən sonra bu ölkə artıq nəinki bizim bütün məhsullarımızı almayacaq, hətta bütünlüklə qapıları bağlaya bilər. Çünki bu gün Rusiyada aqrar sektorda o qədər şaxələnmiş dövlət subsidiyalaşması gedir ki, bir neçə ilə əksər məhsullarla daxili bazarı təmin etməyə kifayət edəcək. Rusiya nəhayət qərara gəldi ki, daxili bazarı xaricdən asılı vəziyyətdə saxlamaq olmaz, bu mənada yerli istehsalı təşkil etmək lazımdır. Dövlət dəstək və investisiya verməyə hazırdır, bu dəqiqə Rusiyada təcili investorlar axtarılır. Rusiyanın cənub bölgələrinə getdim, Saratov, Volqoqrad, Krasnodar bölgələrində azərbaycanlı, erməni, yəhudi və başqa bir çox millət investisiya qoymağa can atırlar. Dövlət də onların arxasında durur. Bir çox məhsul üzrə, xüsusən də xiyar, bibər kimi məhsullarda indidən ölkənin daxili tələbatı təmin olunub. Bunlar çox ciddi siqnaldır. Bu, Azərbaycanın böyük bir bazarı itirməsi deməkdir. Rusiya tarixən bizim üçün ənənəvi bazar olub. Burada 200 milyon insandan söhbət gedir, Rusiya ərazisinin böyük hissəsi ilin təxminən 7-8 ayında əkinə yararlı deyil, iqlim faktoru əlverişsizdir. Əsasən Rusiyanın cənub bölgələrində istehsal gedir, bu bölgələr itirilirsə, biz o zaman üzümüzü ərəb ölkələrinə çevirməliyik. Ərəb ölkələri də çox böyük bazarlar, bu gün ərəb ölkələrində 60 milyon istehlakçı var. Ancaq ərəbin standartları daha yüksəkdir. Biz ərəb ölkələrinə aparmağa o standartlarda kifayət qədər məhsul tapa bilməyəcəyik.

***- Adətən bazarda hansısa məhsulun qiyməti yüksək olduqda , növbəti il fermerlər kütləvi şəkildə həmin məhsulu əkir və qiymət maya dəyərindən belə ucuz olur. Biz soğan və sarımsaqla bağlı belə bir təcrübə yaşadıq. Bunu necə tənzimləmək olar? Kənd Təsərrüfatı Nazirliyinin yanında Aqrar Tədqiqatlar Mərkəzində Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi yaradılıb. Bu sistem vasitəsilə ölkə üzrə hansı məhsuldan, nə qədər əkildiyini izləmək mümkün olacaq. Sizcə, effekt verəcəkmi?***

- Kənd Təsərrüfatı Nazirliyi elektron sistem yaradır, bu çox gözəl təşəbbüsdür. Bu həm 2009-cu ildən aparılan subsidiya proqramının şəffaflaşdırılmasına kömək edəcək. İkinci ciddi problem də odur ki, hər il müəyyən məhsul partlayışları baş verir, hamı kütləvi şəkildə məhsul əkir, ancaq sata bilmir. Bu sistem həm də o stress faktoru müəyyən qədər yüngülləşdirəcək. Yəqin ki, mərkəzi icra qurumu olaraq nazirlik bütün regionlara o informasiyanı göndərə biləcək. Nəzəri olaraq, bu sistem imkan verəcək ki, bizim əsas ənənəvi bazarlarımızda gedən tendensiyalar izlənilə bilsin. Rusiya bizim üçün tədricən daralan qapıya bənzəyir. Həmçinin hesablanacaq ki, bizə yaxın bazarlarda və ölkənin daxili bazarında nə qədər tələbat var. Bu informasiyalar bütün istehsalçılar arasında yayılmalıdır. Burada əsas istiqamət maarifçilikdir. Mənim bütün bölgələrdə apardığım müşahidələrə görə, bazarda məhsul partlayışlarını yaradan problem ondan ibarətdir ki, bizim bütün bölgələrimizdə insanlarda ənənəvi təsərrüfat vərdişi var. Məsələn, soğan əkilən Ağcabədi, Beyləqan, Bərdə, Füzuli bölgələrində insanlar neçə nəsildir ki, eyni məhsulu əkirlər. Nə inzibati yolla, nə də maarifləndirmə yolu ilə o insanların vərdişini dəyişmək mümkün olmayacaq. Çünki o adam soğandan başqa heç nə əkə bilmir. Biz o insana zorakılıq yolu ilə deyə bilmərik ki, soğan əkmə. Bu mümkün olan hal deyil. Burada biznes münasibətləri ortaya gəlməli, o insanlarla fərdi münasibətlər qurulmalıdır. Soğan yoxdursa, o insana elə bir alternativ seçim təklif edilməlidir ki, imtina etməsin.

***- Nicat bəy, siz xırda təsərrüfatların birləşdirilməsi modelini dəstəkləyirsinizmi?***

- Bu gün ölkədə kiçik və səmərəsi aşağı olan təsərrüfatların kooperasiyalara birləşdirilməsinə ehtiyac var. Yeni kooperasiya modelləri ortaya qoyulmalıdır. Ancaq istehsalçıların bir çoxu birləşməkdə maraqlı deyillər, onların iqtisadi təfəkkürü yoxdur. Dövlət olaraq biz həmin insanlara təminat verməliyik ki, bütün iqtisadi risklərdə arxandayıq. Prosesin birinci mərhələsində birləşmək və birgə istehsal formalarını tapmaqdan söhbət gedir. Çünki rayon yerlərində birinin torpağı var, birinin texnikası var, birinin heç nəyi yoxdur, lakin əqli mülkiyyəti var, bu sahəni yaxşı bilir. Bu insanları bir kooperasiyada birləşdirmək və sistemi elə qurmaq lazımdır ki, adamlar prosesdən iqtisadi səmərə ilə çıxsın. Bu çox mürəkkəb prosesdir. Son 1 ilə yaxındır ki, nazirlikdə ciddi dəyişikliklər gedir. Nazirlik inzibati qurumdan çıxaraq xidmət qurumuna çevrilir. Həm yerlərdə DAİM-lərin yaradılması, bütün xidmətlərin yığılaraq, vahid Aqrar Xidmətlər Mərkəzinin yaradılması, son 1 ildə xidmət sektoru getdikcə düzəlir. Fermerin əsas problemi də bu idi - texnikaya əli çatmırdı, güzəştli kreditlərə, mütəxəssisə, informasiyalara əli çatmırdı. Bu xidmət sektoru qeyd edilən tələbatları ödəyəcək. Ancaq kənd təsərrüfatı sektoru iki hissədən ibarətdir: elmi və xidməti. Paralel olaraq elmi təminat da güclənməlidir. Ucqar bir kənddə yaşayan fermerə biz informasiyanı çatdırmalı, izah etməli, onun həyatına daxil olmalıyıq. Düşüncələrini dəyişməliyik və təşviq etməliyik ki, məhsulu düzgün əkmirsən. Hər şey torpaqdan başlayır, bizdə insanlar torpağı düzgün becərmirlər. Toxum seçimində ciddi problemlər var. Aqrotexnika çox köhnədir. Çox nadir hallarda fermer xarici ölkələrdəki həmkarları ilə yazışır, informasiya əldə edir, internetdə nə isə məlumat axtarır. Bu insanları maarifləndirmək üçün aqrar elmi məlumatlandırma sistemi olmalıdır. Bu funksiya da Kənd Təsərrüfatı Nazirliyindədir, aqrar elm mərkəzi var, ölkədə 7 elmi-tədqiqat institutu var, bütün bölgələrimizdə 10-dan çox təcrübə stansiyaları var. Ümid edirəm ki, bundan sonrakı mərhələdə də nazirliyin indiki rəhbəri fermerlə elmi mərkəzlər arasında inteqrasiyanı təmin edə bilər.



**"Soyuducu anbar tikildi və məlum oldu ki, həmin bölgədə yetişən meyvə-tərəvəz bu anbarın içində saxlanıla bilməz"**

❑ **Nərgiz LİFTİYEVA,**
**Fotolar Məğrur Mərdindir**

**İki gün ərzində Azərbaycanda baş verən avtobus qəzaları nəticəsində 46 nəfər yaralanıb, 1 nəfər isə dünyasını dəyişib. Belə ki, fevralın 21-də Sumqayıt şəhərində Nizami küçəsi ilə Əzizbəyov küçələrinin kəsişməsində "Toyoto Prado" markalı avtomobilin avtobusun yoluna çıxması nəticəsində qəza baş verib. Sərnişin avtobusunun sürücüsü qəzadan yayınmağa çalışsa da, idarəetməni itirərək yaşayış binasına çırpılıb. Nəticədə 42 nəfər yaralanıb, onlardan 19 nəfəri xəstəxanaya yerləşdirilib.**

# Ölkədə avtobus qəzaları: iki gündə 46 nəfər yaralı, 1 ölü...

## Ekspert: "Bütün bunlara nəzarət etmək və son qoymaq üçün lazımi addımlar atılmalıdır"




Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Sumqayıt Şəhər Təcili Tibbi Yardım Xəstəxanasına gələrək xəsarət alanlara göstərilən ilkin yardımla tanış olub, müvafiq tapşırıqlarını verib.

Fevralın 22-də isə Sabirabad rayonunda sərnişin mikroavtobusu qəzaya düşüb. Hadisə rayonun Qaratəpə kəndi ərazisində baş verib.

Belə ki, "Ford" markalı sərnişin mikroavtobusu yük maşını ilə toqquşub. Nəticədə mikroavtobusda olan sərnişinlərdən 1-i ölüb, 4-ü ağır bədən xəsarətləri alıb.

Ekspertlər bu məsələdə bildirirlər ki, əsas problem avtobus sürücülərinin məsuliyyətsizliyi və lazımi qədər təcrübəyə sahib olmamalarıdır.

"Yeni Müsavat"a danışan **nəqliyyat eksperti İlqar Hüseynov** bildirib:

"Bu məsələyə qədər avtobusların vəziyyəti ilə bağlı xeyli şərhlər vermişik. Lakin təəssüf ki, ölkədə bununla bağlı mövcud problemlər dəyişməz olaraq qalır. Təkliflər vermişik ki, avtobus sürücüləri xüsusi kateqoriyaya sahib olan sürücülər olmalıdır. Eyni zamanda sürücülər vaxtaşırı olaraq təlimlərə cəlb olunmalıdır. Məsələ bununla da bitmir. Həmin sürücülərin etik davranışları ilə bağlı kodeks hazırlanmalıdır. Bu davranış kodeksində sürücülərin və şirkətlərin üzərinə götürdükləri öhdəliklər aydın olmalıdır, məsuliyyət artırılmalıdır. Təəssüf ki, bu gün ictimai nəqliyyatda sürücülüyə cəlb edilən şəxslərin böyük əksəriyyəti kiçiktutumlu avtomobilləri idarə etmək üçün nəzərdə tutulan sürücülük hüququna malikdirlər. Onların böyük əksəriyyətində müvafiq kateqoriya mövcud deyil. Eyni zamanda sərnişindaşıma xidmətini həyata keçirən şirkətlər də, demək olar ki, məhdud mühitdə fəaliyyət göstərirlər. Həmçinin onlara lazım olan sanksiya və cərimələr də tətbiq olunmur. Bütün bunların fonunda Bakı Nəqliyyat Agentliyi də hazırda bu məsələlərdən daha çox, fəaliyyətlərini yol kənarlarında nəqliyyatların qeyri-düzgün park edilməsinə yönəldib, cərimələrin tətbiqi ilə məşğuldurlar. Düşünürəm ki, agentlik bu məsələlərdə gərəkən iradəni ortaya qoymur. Nəticədə marşrutlar üzrə hərəkət edən sürücülərə cəza sanksiyaları tətbiq edilmir. Eyni zamanda təkliflərimiz sırasında bu da var ki, Bakı Nəqliyyat Agentliyinə daxil olan sərnişindaşımanı həyata keçirən şirkətlər, özlərinin kadr bazalarını formalaşdırmalıdır. Həmin kadr bazasında isə kifayət qədər təcrübəyə malik olan sürücülərin işə cəlbi ilə bağlı axtarışlar olmalıdır. İşə cəlblə bağlı tenderlər də həyata keçirilməlidir. Doğrudan da nəzərdə tutulan tələblərə cavab verənlər işə götürülməlidir. Bu cür məsuliyyətsizliklərdən başqa hadisələrə səbəb kimi fərqli məqamların üzərində dayana bilmirik. Əslində bu cür hadisələri törədən avtobusların daxil olduğu daşıma şirkətləri də məsuliyyətə cəlb olunmalıdır. Onlar yaralıların sağalması ilə bağlı bütün məsrəfləri öz üzərlərinə götürməlidirlər. Həmçinin baş verən hadisə ilə bağlı böyük təzminatlar tətbiq olunmalıdır. Belə olarsa bəlkə də həmin şirkətlər öz üzərlərinə çalışıb, daha da məsuliyyətli olarlar".

**Ekspert deyib ki, qəzaların əksəriyyəti daha çox sərnişin götürmək üçün qaydaların pozulması nəticəsində baş verir**:

"Bir-biri ilə yarışıb, təhlükəli manevr edib, sürət həddini aşırlar. Dayanacaqlara daha tez daxil olub, sərnişinləri götürmək uğrunda sanki böyük yarış gedir. Hər bir avtobus sürücüsü sürətli şəkildə dayanacağa girib, sərnişinləri yığmağa çalışır. Nəticədə isə qəza qaçılmaz olur. Diqqət edək ki, bu cür qəzalar daha çox şəhərin mərkəzində deyil, kənarlarda baş verir. Yada salaq ki, Lökbatanda da çox ağır qəza baş vermişdi. Çünki bu nəqliyyat vasitələri həm də Nəqliyyatın İntellektual İdarəetmə Sisteminə qoşulmayıblar. Marşrut üzrə hərəkət edən sürücülər buna görə də gərəkən intervalı gözləmirlər. Nəzərdə tutulan intervalda hərəkətlərini qurmayıb, daha çox dövr etməyə çalışırlar. İstəyirlər ki, gün ərzində normadan artıq pul qazansınlar. Bunun nəticəsidir ki, yoldan çıxıb divara çırpılırlar, qəza edirlər. Avtobus sürücüləri özləri ilə bərabər sərnişinlərin də həyatına biganədir. Bütün bunlara nəzarət etmək və son qoymaq üçün lazımi addımlar atılmalıdır".

**❑ Əli RAİS,**
**"Yeni Müsavat"**

# "Sosial şəbəkələr ilan zəhəri kimidir" - sosioloq

## Əhməd Qəşəmoğlu ailə institutunun dağılmasında internet ünsiyyətinin təsirlərini açıqladı: "Konkret fəaliyyət proqramı olmasa, ilbəil boşanmaların sayı artacaq"



**"Sosial şəbəkələr boşanmalara səbəb olur". Deputat Çingiz Qənizadə belə düşünür. Deputat bildirib ki, ötən il qurulmuş 60 min ailədən 12 mini boşanma ilə nəticələnib:**

"Bu, təxminən iyirmi faiz deməkdir və çox təhlükəli rəqəmdir. Burada sosial şəbəkələrin də rolu var. Maarifləndirməyə ehtiyac var və bu, sosial şəbəkə üzərindən də aparılmalıdır. Mən dediyim rəqəm rəsmi nikahlara aiddir. Bura küsülü gedənlər və digərləri aid deyil".

Bu günlərdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də internetin Azərbaycanda tənha insanların sayını artıracağından, boşanma prosesini gücləndirəcəyindən narahatlığını ifadə etmişdi.

**Komitə rəsmisi Elgün Səfərov**un sözlərinə görə, Azərbaycanda internetin insanların həyatına, onların tənha qalmasına, eləcə də boşanmasına təsiri güclənəcək. O, əvvəllər ailələrdə məişət zorakılığı hallarının boşanmaya səbəb olmadığını söyləyib.

Gənclər internet cəmiyyətinin içində formalaşaraq qapalı olublar. Xarici dövlətlərin təcrübəsinə baxdıqda görmək olur ki, internet cəmiyyəti tənhalığa gətirib çıxarır.

Amma bu problemi təkcə internetin ayağına yazmaq olmaz. Ailə quran cütlüklərin bir-birini yaxşı tanımaması, zorakılıq, sosial şəraitin pis olması boşanmalarla nəticələnir. Sözsüz ki, 90-larda maddi şəraitin daha ağır olduğunu, amma boşanmaların kütləviləşmədiyini söyləyə bilərik.

Lakin qloballaşan dünyada müasir gənclik köhnə həyat tərzi ilə yaşamır, gənc qadınlar həyat yoldaşının az qazancı ilə barışmır, özü karyera qurmaq istəyir və s. ilaxır problemlər meydana gəlir.

Bu da boşanmaya gətirib çıxarır. Son dövrlərdə sosial şəbəkə üzərindən xəyanətlər olması faktları da az deyil. Hətta cinayətə gətirib çıxaran hallar olur.

**Sosioloq Əhməd Qəşəmoğlu** bu məsələyə birmənalı yanaşmağın və tələsik fikir bildirməyin tərəfdarı deyil. Onun sözlərinə görə, cəmiyyət mürəkkəbləşir və hər bir prosesə kənar təsirlər çoxalır.

**Ekspertin fikrincə, kəndlərdə boşanmalara təsir faktoru bir-iki amildirsə, şəhərlərdə müxtəlif səbəblər var:**

"Çingiz müəllim əgər düşünürsə sosial şəbəkələrin rolu daha çoxdur, gəlin bir statistika aparaq, görək boşanmış ailələrin neçə faizi feysbuka girir, internetdən istifadə edir.

Məncə, boşanmalara təsir edən iqtisadi səbəblərdir. İkincisi, milli-mənəvi dəyərlərə münasibət dəyişib. Min illərin təcrübəsi göstərir ki, mənəvi dəyərlər öndə olursa, cəmiyyət özünü tənzimləyir. Gərək mənəvi dəyərlər möhkəm, güclü olsun, immunitet güclənsin ki, sosial şəbəkə və ya kənar təsirlər ailələrin dağılmasına gətirib çıxarmasın".

**Ə.Qəşəmoğlu hesab edir ki, vaxtında addımlar atılmalıydı, konkret fəaliyyət proqramı olmalıydı:** "Bu proseslər yer üzündə baş verir, qloballaşma gedir. Bəzən bilmədən özümüz də dəstək veririk. Məsələn, qadınlara qarşı zorakılıqla xaotik mübarizə kampaniyası başlayıb. Bunlar düşünülməmiş addımlardır. Kişilərin vəhşi obrazı yaradılır, qadınlar heç dərk eləmir ki, zorakılıq nədir. Çünki azadlıq anlayışı düzgün mənimsənməyib. Konkret fəaliyyət proqramı olmasa, bu gedişlə ilbəil boşanmaların sayı artacaq. Mən həmişə deyirəm ki, sosial şəbəkələr ilan zəhəri kimidir. Düzgün istifadə olanda dərmandır, olmayanda dağıdıcıdır".

**Sosioloq xarici teleseriallların mental dəyərlərə, ailə institutunun dağılmasına təsirlərini də istisna etmir:** "Düşmən marağı da var ki, bizim əhaliyə pis təsir edən ideyalar təbliğ olunsun. Əfsus ki, öz filmlərimizdən arzu etdiyimiz kimi yarada bilmədik. Xarici seriallar isə narkotik kimi təsir edir".

**❑ Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# Azərbaycanın mənzil bazarında bahalığın səbəbləri

## Ekspertlər tikinti sahəsində liberallaşmanı zəruri hesab edirlər

**Azərbaycanın mənzil bazarındakı bahalıq uzun illərdir insanları narahat edir. İnkişaf baxımından Azərbaycanla eyni səviyyədə olan heç bir ölkədə daşınmaz əmlak qiymətləri Bakıdakı qədər yüksək deyil. Şəhərin mərkəzindən aralı ərazilərdə belə bu gün yeni tikilən binalarda mənzilin kvadratmetrini 1000 manatdan aşağı tapmaq mümkün deyil. Bu bahalığı şərtləndirən hansı amillərdir? Ölkənin tikinti bazarındakı məmur-oliqarxlara bağlılıq burada nə qədər rol oynayır?**

Bu barədə "Yeni Müsavat"a danışan **iqtisadçı-ekspert, İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramov**un fikrincə, daşınmaz əmlak sahəsində bahalıq əsasən neft bumu dövründə formalaşıb: "Bum dövrünün spesifik cəhətlərindən biri budur ki, daşınmaz əmlak bazarında qiymət artımlarına gətirib çıxarır. Daşınmaz əmlak bazarı neft bumu dövründə cəlbedici idi, kommersiya baxımından daha çox gəlir əldə etməyə imkan verirdi. Buna görə də Rusiyada və digər ölkələrdə işləyib pul qazanan vətəndaşlarımız bu bazarda tələbi yüksəltdilər. Manatın devalvasiyalarından sonra daşınmaz əmlakın qiyməti dollar ifadəsində azaldı. Əgər devalvasiyadan əvvəl Bakının daşınmaz əmlak bazarında qiymətlər nəinki regionda, hətta daha geniş əhatədə ən yüksək səviyyədə isə devalvasiyalardan sonra azalma baş verdi. Buna baxmayaraq, hazırda manat və dollar ifadəsində qiymətlər yüksəkdir".

**Ekspertin sözlərinə görə, Azərbaycan daşınmaz əmlak bazarında qiymətlər gəlir səviyyəsi və alıcılıq qabiliyyəti ilə uyğun deyil:** "Bizim araşdırmalarımız göstərir ki, yeni binalarda mənzilləri bir çox hallarda saxlamaq üçün alırlar. Yəni baxırsan ki, binanın yarıdan çoxu satılıb, amma mənzillərdə yaşayan yoxdur. Bu da süni tələb formalaşdırır. 2015-2018-ci illərdə bazarda təklif də azalıb. Amma burada inzibati faktorlar da var. Kifayət qədər təsirli şirkətlər var ki, qiymətlərin enməsinə imkan verməməyə çalışırlar. Çox fərqli mətbuat orqanlarına real əsası olmadan yaxın vaxtlarda mənzillərin bahalaşacağına dair məlumatlar sızdırılır. Bununla da süni tələb formalaşdırmağa çalışırlar. Yaxud satıcılar bir-biri ilə razılaşırlar ki, qiymətləri endirməsinlər".

**V.Bayramov hesab edir ki, qiymətlərin azalması üçün bazarda təklif artmalıdır:** "Xərclərin azaldılması çox vacibdir. Bum dövründə tikinti xərclərinə təsir edən faktorlar çox idi: icazələrin alınması, kommunal xidmətlərə çıxış, istismara qəbulda qeyri-rəsmi xərclər çox idi. Son vaxtlar bu sahələrdə şəffaflığın təmin olunması istiqamətində ciddi addımlar atılır. İnşaat sektorunun liberallaçdırılması mənzil bazarında ucuzlaşmaya gətirib çıxara bilər".



**Əmlak Ekspert Mərkəzinin direktoru Ramil Osmanlı** əmlak bazarında qiymətlərin bahalığında qeyri-rəsmi xərclərin yüksək olması faktorunun mühüm rol oynadığı fikrindədir: "Bu qeyri-rəsmi xərclər üzündən normalda bir kvadratmetrinin maya dəyəri 500-600 manata başa gəlməli olan tikintinin qiyməti bəzi hallarda iki dəfəyə qədər artır. Buna korrupsiya halları, qeyri-rəsmi ödənişlər səbəb olur. Bu günlərdə cənab president özü bu məsələlərdən birinə müdaxilə etdi. Çoxmərtəbəli binaların istismara qəbul qaydalarının sadələşdirilməsinə dair fərman imzaladı. Buna qədər Bakıda yüzlərlə bina qeydiyyatsız qalmışdı".

**R.Osmanlının sözlərinə görə, reallıqda Azərbaycanda, xüsusilə də Bakı şəhərində mənzilə olan tələbat çox yüksəkdir:** "Amma heç də hamının mövcud qiymətlərlə mənzil əldə etməsi mümkün olmur. Yəni tələbin səviyyəsi qiymətlərdən birbaşa asılıdır. Bahalığın digər mühüm bir səbəbi bir çox şirkətlərin dövriyyə kapitalı əsasında fəaliyyət göstərməməsi ilə bağlıdır. Normal xarici ölkələrdə tikinti şirkətləri dövriyyə vəsaitləri hesabına fəaliyyət göstərirlər. Azərbaycanda isə bir sıra tikinti şirkətləri var ki, kənar maliyyə resursları hesabına fəaliyyət göstərirlər, onların dövriyyədən əldə olunan vəsaitlərə ehtiyacları yoxdur, çünki əlavə maliyyələri var. Bir növ, bu qeyri-qanuni vəsaitləri leqallaşdırmağın bir yoludur. Bu amil bazarda sağlam rəqabət mühitinin formalaşmasına da imkan vermir. Bazarda rəqabət olarsa, kənar maliyyə resursları olmazsa, istər-istəməz qiymət siyasətinə yenidən baxılacaq. Amma kənar maliyyə resurslarına bağlı olan şirkətlər bir mənzil belə satmadan on bina tikmək imkanındadılar. Rəqabət olmadığına görə onlar bazara istədikləri qiyməti diqtə edə bilirlər".

❑ **D.SAKİT,
"Yeni Müsavat"**

# Ölən şəxslərin pensiyası varislərinə verilə bilərmi...

## Ekspert: "Buna o zaman getmək olar ki..."

**Bu il Rusiyanın pensiya qanunvericiliyinə maraqlı bir dəyişikliyin edilməsi nəzərdə tutulur. Ölkədə başladılan pensiya islahatlarının son ili hesab olunan cari ildə ölkənin "Sosial sığorta haqqında" qanununa sonuncu dəyişikliklər olunacaq. Rusiya Dövlət Dumasının təklif etdiyi dəyişikliklərdən birində vəfat etdikləri təqdirdə Rusiya vətəndaşlarının pensiyasının yığım hissəsinin onların varislərinə verilməsi nəzərdə tutulur. Burada söhbət vətəndaşın pensiya yaşına çatmadan vəfat etməsindən gedir. Pensiya yaşına çatıb bir ay belə ödəniş alan şəxslər üçün bu hüquq itirilmiş sayılır.**



Onu da bildirək ki, bu qayda bütün dünyada geniş tətbiq olunur. Hesab edilir ki, vətəndaşın uzun illər boyu əmək haqqından ödədiyi sosial sığorta haqqı onun varislərinə də olsa qaytarılmalıdır. Bu qaydanın Azərbaycanda da tətbiqi mümkündürmü? Uzun illər boyu əldə etdiyi gəlirdən Pensiya Fonduna iri məbləğdə vəsait ödəyən insanların yaxınları onun pensiya varisi niyə də olmasın? Sualları cavablandıran **iqtisadçı-ekspert Pərviz Heydərov** bildirir ki, artıq neçə illərdir Azərbaycanda da pensiya islahatları həyata keçirilir: "Bizdə pensiya sistemində bir sıra çatışmazlıq var. Bu baxımdan, Rusiyanın tətbiq etməyə hazırlaşdığı, dünyanın əksər ölkələrində olan bu qaydanı bizdə tətbiq etmək mümkün deyil. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin hesablamalarına görə, vətəndaş illər boyu ödədiyi sosial sığorta haqqı hesabına 12 il pensiya ala bilər. On iki ildən sonra bu məbləğ tükənir, buna qədər ya vətəndaş vəfat edir, ya da vaxt bitəndən sonra dövlət ona pensiya verməyə başlayır. Bu, vətəndaşın ödədiyi sığorta məbləğindən və ödəniş müddətindən asılı olmadan belədir. Hökumət mütəxəssisləri bu on iki illik müddəti əsaslandırarkən adətən Avropa ölkələrinin təcrübəsinə istinad edirlər. Eyni arqumentlə pensiya yaşını da artırırlar. Doğrudur, Avropada da belədir. Amma Avropada orta ömür müddəti bizimkindən yüksəkdir axı... Bizdə problem ondadır ki, az qala hər muzdlu işçiyə bir pensiyaçı düşür. Nəticədə pensiyaların mühüm bir hissəsini dövlət özü ödəməli olur. Bunun da əsas səbəbi kölgə iqtisadiyyatının yüksək olması nəticəsində qeydiyyatsız işçilərin çox olmasıdır. Yanvardan etibarən tətbiq olunan vergi islahatları bu sahədə irəliləyişə səbəb olarsa, bir pensiyaçıya düşən işçi sayı arta bilər. Bu göstərici dünya səviyyəsinə çatarsa, biz də vəfat edən şəxslərin pensiya kapitalını onların varislərinə ödəyə bilərik".

**Ekspert bildirir ki, Avropada pensiya məbləği minimal və sığorta hissələrinə bölünmür:** "Avropada pensiya yalnız yığım hissəsindən, yəni ödədiyi sığorta haqqının məbləğinin imkan verdiyi hissədən ibarətdir. Bizdə isə uzun illər mövcud olmuş şərtlər daxilində yalnız yığım hissəsini tətbiq etmək mümkün deyil. Dövlət büdcəsi hesabına minimal məbləğ də əlavə edilir yığım hissəsinin üstünə. Bu baxımdan, bizdə vəfat edən şəxslərin ödədiyi sığorta haqqının onun varislərinə verilməsini təmin etmək mümkün deyil".

P.Heydərovun sözlərinə görə, Azərbaycanda problem yaradan amillərdən biri də özəl pensiya fondlarının olmamasıdır: "Özəl pensiya fondlarının yaradılması təcrübəsindən istifadə olunacağına dair uzun müddətdir müzakirələr gedir, lakin hələ də bu sistem tətbiq olunmayıb. Özəl pensiya fondlarının olması vətəndaşlar üçün seçim imkanı yaratmaqla bərabər, yığım şərtlərinin də onların xeyrinə dəyişməsini şərtləndirə bilər".

❑ **DÜNYA,
"Yeni Müsavat"**



# Bakıda bir gün əvvəl nişanı olan gənc qəzada öldü

**Bakıda bir gün əvvəl nişanlanan gənc qəzada dünyasını dəyişib.**

"Qafqazinfo"nun verdiyi xəbərə görə, hadisə fevralın 21-də gecə saatlarında şəhər şosesindən Maştağaya gedən yolda baş verib.

Belə ki, Əli Novruzov "Koroğlu" metrosundan "1 manatlıq" taksiylə Maştağa qəsəbəsinə gedirmiş. Taksi sürücüsü qəza törədib və sərnişini Əli Novruzov vəfat edib.

Ə.Novruzovun fevralın 20-də nişanı olub. O, iş yoldaşı Aytən adlı qızla nişanlanıb. Onların hər ikisi "Koroğlu" metrostansiyasının yaxınlığında yerləşən "Bravo" marketdə işləyirmiş.

YENİ MÜSAVAT

Son səhifə

N 43 (7213) 23 fevral 2019



## Təyyarəyə o qədər pul yüklədilər ki, uça bilmədi

Nigeriyada çoxlu nağd pulla yüklənmiş təyyarə uça bilməyib. Bu barədə "Pulse" nəşri xəbər verib. Baş vermiş olayı məşhur nigeriyalı naşir və jurnalist Dele Momodu videoya çəkib. Rolikdən görünür ki, təyyarə yerdən qalxmaqda çətinlik çəkir, bir neçə dəfə cəhd olsa da, proses baş tutmur. Ətrafda isə problemi həll etməyə çalışan aeroport işçiləri vurnuxur. "Bu, Nigeriya filmi olmalıdır", bunu da Momodu sosial şəbəkədə yazıb. Təyyarənin məhz həddən artıq miqdarda nağd pul dolu torbalarla yüklənməsi bu problemin yaranmasına səbəb olub. Amma jurnalist bu pulların nə olduğunu və hara aparılmasının planlaşdırıldığını deməyib.

2018-ci ildə xəbər verilmişdi ki, Amerikanın İllinoys ştatında oyun avtomatları üçün pul daşıyan maşın qəza keçirib və bu dəmir pullar yola səpələnib. Yol işçilərinə bu dəmir pulları yığmaq üçün bir saata yaxın vaxt lazım olub. Bütün bu müddət ərzində şose hərəkət üçün bağlanıb.

# Uşağınıza bu cümlələri əsla deməyin!

Uşaqlarına tez-tez öyüd-nəsihət valideynlər bir çox hallarda ciddi, strateji səhvlərə yol verirlər. Belə ki, ata-ananın dedikləri bəzi sözlər uşaqların psixologiyasına zərbə vurur, onlarda travma yaradır. Amerikalı alimlər bu cümləlіəri belə sıralayıblar: 1. "Məni utandırma" 2. "Mən sənin yaşında olanda..." 3. "Başqalarının uşaqlarına bax..." 4. "Yeməyini yeməsən, böyüyə bilməzsən" 5. "Sən də anan/atan kimisən" 6. "Səndən bir söz belə eşitmək istəmirəm" 7. "Bunu etsən səni sevərəm".



Alimlər hesab edir ki, bu cümlələrin hər biri hansısa formada uşaqlarda kompleks yaradır və onların şəxsiyyət kimi formalaşmasında maneə olur.

## Makiyajdan istifadə etməyən qadın özünə az dəyər verir

Qadınlar müxtəlif səbəblərə görə kosmetik vasitələrdən imtina edirlər. Əgər kosmetikadan imtina ciddi səbəblərə dayanmırsa, o zaman həmin qadının özünə az dəyər verdiyini demək olar. Belə xanımlar qadınlığın tərəfdarı olmur və özlərinə fikir vermirlər. Səbəbləri odur ki, belə xanımların ya az vaxtları olur, ya da tənbəldirlər. Ətraf mühitdən də çox şey asılıdır. Əgər qız uşaqlıq vaxtında yalnız oğlanlarla dostluq edibsə, sonradan kosmetikadan istifadə ona qəribə gəlir. Kişi kollektivində çalışan qadınlar hərdən İdaxillərində» ki naz-işvəni» unudurlar. Makiyajın yoxluğu feminizmin də əlaməti ola bilər. Kişilə eyni səviyyədə olmaq istəyi zərif cinsin bəzi nümayəndələrini kosmetikadan imtina etməyə sövq edir. Bir qayda olaraq, belə qadınlar karyeranı həyatlarında ən dəyərli meyar sayırlar. Dodaq boyasından və tuşdan imtina edirlər. Xüsusilə də eqosentrik qadınlar belə addım atırlar. Belə qadınlar hesab edirlər ki, bütün Yer kürəsi onların ətrafında fırlanır və gözəl görünmək onlar üçün də vacib deyil. İMən necə varamsa, eləyəm» prinsipilə yaşayan qadınlar da kosmetikaya maraq göstərmirlər. Onlar təbii obraza üstünlük verir və hesab edirlər ki, ətrafdakılarla dürüst olmaq və xarici görkəmi bəzəməklə kişiləri aldatmamaq lazımdır.





## 600 min avroya görə barmağını kəsdi

Almaniyanın Potsdam-Mittelmark rayonunda 43 yaşlı stomatoloq külli miqdarda sığorta haqqı almaq üçün öz barmağını kəsib. Bu hərəkətinə görə dələduzluq maddəsi ilə ittiham edilən və 1 il müddətinə şərti azadlıqdan məhrum edilən stomatoloq isə bunun iftira olduğunu deyib. Onun dediyinə görə, ötən ilin martında çalışdığı stomatoloji kabinetə iki naməlum şəxs girərək silah gücü ilə ondan pul və qızıl tələb edib. Onlara yox cavabı verəndə isə soyğunçular onun baş barmağını kəsiblər. Amma istintaqçılar bu olayı araşdıranda maraqlı fakta qarşılaşıblar. Stomatoloji kabinetdə qan izləri ilə yanaşı ağrıkəsici izləri də aşkarlanıb və istintaq müəyyən edib ki, həkimin kabinetinə heç kim hücum etməyib. O, iş qabiliyyətini itirdiyi bəhanəsi ilə 600 min avro məbləğində kompensasiyanı ala bilmək üçün barmağını özü kəsib. Bundan başqa, stomatoloqun hücum qurbanı olaraq sığorta şirkətindən 250 min avro məbləğində vəsait alacağı da gözlənirdi.

## Qoroskop




**QOÇ** - Daxili gərginliyiniz xeyli səngiyəcək. Bu isə başınıza yeni ideya və perspektivli fikirlərin gəlməsinə səbəb olacaq. Həlli mürəkkəb olan işlərə girişməyin. Sizə passivlik yaraşmır.

**BUĞA** - Müəmmalı bir tarixdir. Özünüzlə bağlı situasiyaları nəzarətdə saxlaya bilməyəcəksiniz. Yaxşı olar ki, etibar etdiyiniz adamların rəyi ilə hesablaşasınız. Sizə kömək göstərəcəklər.

**ƏKİZLƏR** - Sürprizlərlə dolu bir təqvim yaşayacaqsınız. Kiçicik gərginlikləri nəzərə almasaq, ətrafınızda cərəyan edən hər bir hadisə ürəyinizcə olacaq. Maraqlı görüşləriniz gözlənilir.

**XƏRÇƏNG** - Taleyüklü məsələlərin həlli üçün perspektivli təqvimdir. Mövcud problemlərinizi aradan qaldırmaq üçün əhəmiyyət kəsb edən adamlarla görüşün. Məsuliyyətsizlik etməyin.

**ŞİR** - İştirakçısı olduğunuz prosesləri gərginləşdirməyin. Qanqaraldan işlərə meyl etməsəniz, hörmətiniz artacaq. Günün ikinci yarısını bütünlüklə maliyyə məsələlərinə həsr edin.

**QIZ** - Daxili duyğularınızı tənzimləmək üçün fiziki işlərdən uzaq olun. Bu gün ulduzlar məclislərdə iştirakınızdan da xəbər verir. Dəvətləri qəbul etməyə çalışın. Səhhətinizə fikir verin.

**TƏRƏZİ** - Fəaliyyət zəminində uğurlarınız xeyli artacaq. Bu istiqamətdə sizə etibar etdiyiniz bəzi insanlar da kömək edə bilər. Amma onu da nəzərə alın ki, axşama qədər mənfi enerjili Ay bürcünüzdədir.

**ƏQRƏB** - İxtiyarınızda olan bu şıltaq təqvim sizin üçün uğurlu olmalıdır. Odur ki, vaxtınızı boşa verməyin. Müxtəlif ünvanlara baş çəkməklə maddi və mənəvi rahatlıq qazana bilərsiniz.

**OXATAN** - Günün ümumi ovqatı çox yaxşıdır. Demək olar ki, nəzərdə tutduqlarınızın böyük əksəriyyəti doğrulacaq. Xüsusilə nahardan sonra qəlbinizin şad olması üçün gözəl situasiya yaranacaq. Axşam qonaq gedin.

**OĞLAQ** - Hər bir məsələdə qanunauyğun addım atın. Saxta iş görmək, yalan vəd vermək sizi gözdən sala bilər. Elə edin ki, etibarlı müttəfiq imiciniz öz qüvvəsində qala bilsin.

**SUTÖKƏN** - Həqiqətə yaxın olan arzularla yaşayın. Paxıl və bədxah adamlara fikir verməyin. Gələn ay üçün görəcəyiniz işləri indidən planlaşdırın. Uzaq səfərə çıxmağı isə təxirə salın.

**BALIQLAR** - Günorta saat 15-ə qədər nəzərdə tutduğunuz planları reallaşdırmaqda heç bir problemlə rastlaşmayacaqsınız. Sonrakı müddətdə isə ehtiyatlı olun. Axşam saatlarını evdə keçirməyə çalışın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Şəkil çəkmək sevdası ölümünə səbəb oldu



Amerikanın Nyu-Cersi ştatında gün doğuşunun şəklini çəkmək istəyən jurnalist dünyasını dəyişib. Lenta.ru saytının xəbərinə görə, hadisə çimərliklərdən birində, meydançada baş verib. Fotoqraf 12 metrlik meydançadan yerə düşüb və yerindəcə keçinib. 68 yaşlı Mark Saymon həmin anda həyat yoldaşı ilə məzuniyyətdə idi. Maşında oturub ərinin gün doğuşunu çəkməsini gözləyən qadın onun gec gəldiyindən şübhələnərək, polisə bu haqda məlumat verib. Polislərin onu tapması isə çətin olub. Çünki o, meydançadan daşın üstünə düşüb və onu ordan çıxarmaq üçün dalğanın axınını gözləmək lazım gəlib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.755